**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNGİLİSDİLLİ ƏDƏBİYYATDA VƏ BƏDİİ KİNO MƏTNLƏRİNDƏ UTOPİYA VƏ DİSTOPİYA

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Mahirə Tahir qızı Hacıyeva**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Komparativistika və bədii tərcümə şöbəsi"ndə yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

filologiya elmləri doktoru, professor
**Nailə Məmmədhüseyn qızı Sadıqova**

filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

filologiya elmləri doktoru, dosent
**Həmidə Əhməd qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən BED 1.31 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, dosent
**Yeganə Atamoğlan qızı Abdullayeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bədii ədəbiyyat və bədii kino bizi işarələrlə, eyhamlarla zəngin, rəngarəng, sehrli bir illüziya dünyasına aparır. Bu dünyanın bədii məhsul olduğunun fərqinə varsaq da, onun təsirinə düşməyə bilmirik. Bu, ondan irəli gəlir ki, bədii əsərlər hər zaman gerçəkliklə, tarixi hadisələrlə, müəlliflərin müasiri olduğu proseslər və potensial gələcəklə bağlı olaraq formalaşır. Spekulyativ bədii əsərlər kimi tanınan utopiya, distopiya (eyni kateqoriyaya həm də elmi-fantastika, fentezi, qorxu, magik realizm, kiberpank, apokaliptik, post-apokaliptik, futuristik və s. əsərlər də daxil edilir) əsərlərində şişirdilmə, fantastik elementlər çox olsa da onların gerçəkliklə əlaqəsi itmir, ən önəmlisi, bu əsərlərdə aparıcı mövzu insanla əlaqədar olaraq qalır.

Bədii düşüncə həm də ideoloji xarakter daşıyır, formalaşdığı dövrdə aktual sosial-siyasi hadisələrlə səsləşərək cəmiyyətin ictimai-siyasi, mədəni düşüncə tərzi ilə əlaqəli şəkildə inkişaf edir. Bu mənada, bədii əsərlər dəyişkən siyasi-ideoloji yanaşmaları, ziddiyyətli sosial münasibətləri, qaynar ictimai-iqtisadi hadisələri müəlliflərin fərdi yanaşması ilə çulğalaşan qlobal xarakterli problemlərlə əlaqələndirərək əks etdirir. Həm utopiya/distopiya ədəbiyyatında, həm də bədii kino mətnlərində sadalanan proseslərin təsiri açıq-aydın hiss olunur. Bundan başqa, utopiya mövcud problemləri diqqətə çatdırmaq üçün onların həll olunduğu təhkiyə formalaşdırır, distopiya isə həm də gələcəyə yönələrək müasir dövrdə baş verən müəyyən proseslərə münasibət dəyişməzsə, gələcək nəsillərin üzləşəcəyi fəlakət barədə xəbərdarlıq edir. Bu xəbərdarlıq ehtiyacı siyasi rejimlər, azadlığın və fərdi düşüncənin itirilməsi, özəl həyata müdaxilə və nəzarət, ətraf mühitə vurulan ziyan, müharibə təhlükələri, insanlararası münasibətlərin dəyişməsi, texnologiyanın insan həyatına dərin müdaxiləsi ilə bağlı narahatlıqdan doğur.

Utopiya formalaşdığı ilk dövrlərdən sadəcə ideal yeri tərənnüm edən nağıllar deyildi, yazıçıların müasiri olduqları problemləri diqqətə çatdırmaq üçün seçdiyi bədii üsul idi. Təsadüfi deyil ki, ingilisdilli bədii düşüncədə yaradılmış ilk utopiyalar dövrün qabaqcıl siyasi xadimlərinin, ictimai fəal insanların qələminin məhsulu idi. Buna görə

də, utopiya anlayışının özü də, utopiya bədii mətnləri də satirik xarakteri ilə seçilir. T.Morun "Utopiya" əsərini təhlil edərkən vurğulanır ki, əsər həm yaxşı yer yaratmaq arzusu, həm də olmayan yerin təsviri kimi təhlil oluna bilər. Bu ənənənin davamı olaraq utopiya əsərlərində tez-tez satira müşahidə edirik, hətta ilk distopiya əsərləri uğursuz utopiya ideyalarının satirik təsviri şəklində qələmə alınmışdır.

Utopiyanın tədricən distopiya əsərləri içərisində əridiyini deyə bilərik. Belə ki, ilk distopiya əsərləri uğursuz utopiyaları təsvir edirdisə, tədricən distopiyanın utopiyanı əvəzlədiyini, yarandığı dövrün siyasi maraqları ilə, sosial-ictimai dəyişikliklərlə səsləşərək distopiyaların insanlıq üçün əhəmiyyətli məsələləri müzakirə etdiyini, hətta insanlığın gələcəyi üçün təhlükələr barədə xəbərdarlıqedici mahiyyətlə yanaşı bu vəziyyətə düşən insan iradəsinin tərənnümü ilə utopiyadan daha artıq ümidverici olduğunu müşahidə edirik. Son dövrlərdə baş verən siyasi qarşıdurmalar, müharibə, nüvə silahlarından istifadə təhlükələri, terror hadisələri, təbii fəlakətlər, tibbi eksperimentlər, genetik dəyişikliklər, epidemiyalar, texnologiyanın getdikcə daha çox nəzarətdən çıxaraq şəxsi həyata genişlənməkdə olan müdaxiləsi kimi hadisələr distopiyanın real ola biləcəyini göstərməkdədir.

Distopiya sadəcə sadalanan dəhşətlər üzündən məhv olmaq təhlükəsindən xəbər vermir, həm də belə vəziyyət yaranarsa insanlararası münasibətlərin hansı şəklə düşə biləcəyi, dəyərlərin potensial yerdəyişməsi və bunun insanlığı aparacağı uçurum barədə xəbərdarlıq edir. Ən əsas problem odur ki, haqqında danışılan məsələlər nə qədər şişirdilmiş görünsə də, tarixə nəzər saldıqda və bu gün baş verənləri təhlil etdikdə heç də mümkünsüz görünmür. Ona görə də, Ceyms V.Skal Robert Hyu Bensonun "Dünyanın hökmdarı" əsərinə yazdığı müqəddimədə vurğulayır ki, *"When I ask myself why this fright, it is because both books make the this worldly triumph of evil so plausible, so intellectual, so logical."*[1] (Özümdən bu qorxunun səbəbini soruşduqda, bunun səbəbini hər iki kitabın şərin dünyəvi qələbəsini bu qədər inandırıcı, belə intellektual və məntiqli etməsində görürəm[*]).

---

[1] Benson, R.H. Lord of the World / R.H.Benson. – Charllotte: TAN Books, – 2016. – p.8.
[*] Bu və bundan sonrakı bütün tərcümələr müəllifə aiddir.

Belə görünə bilər ki, distopiya tamamilə ümidsiz və acınacaqlı vəziyyət deməkdir. Əslində C.Oruellin klassik distopiyası məhz belə bir vəziyyəti təqdim edir. Lakin diqqətlə təhlil olunduqda bədii distopiya bizə ən acınacaqlı dövrdə belə mübarizə imkanı olduğunu sərgiləyir. Demək olar ki, bütün distopiya əsərlərində mübarizə, insanlığın gələcəyinə inam, mənəvi dəyərlərin qələbəsinə ümid əks olunur. Buna görə də, utopiyanın dəyişməz, stabil və darıxdırıcı xarakterini nəzərə alsaq, əslində onunla müqayisədə daha hərəkətli və dinamik distopiya vəziyyətində ümidin daha çox əks olunduğunu deyə bilərik.

Bu gün bədii kino bədii ədəbiyyatla paralel olaraq inkişaf etməkdədir. Xüsusilə distopiya əsərləri, distopiyanın gənc-yetkin qolu məhz bədii kino kimi ekranlaşdırılması sayəsində daha geniş oxucu kütləsi qazanmış, bədii əsərlər böyük gəlir mənbəyi olaraq dəyərləndirilməyə başlanmışdır. Distopiyanın elmi-fantastika ilə əlaqəsi bu zaman diqqəti çox cəlb edir. Bir çox tədqiqatçı hətta utopiya/distopiyanı sırf elmi-fantastika ilə əlaqəli olaraq ciddi janr hesab edir. Digərləri isə utopiya və distopiyanı spekulyativ janr kimi qruplaşdırmaq tərəfdarıdır. Bu janr özündə həm də elmi-fantastika, fentezi kimi əsərləri birləşdirir. Bundan başqa, Oruellin kəskin distopiyası kimi əsərləri kakotopiya (cacotopia), bir neçə kitabdan ibarət olan gənc-yetkin distopiya əsərlərini distologiya adlandırmaq təklif olunur. M.Etvud isə əsərlərində insan amilinin ön planda durduğunu əsas gətirərək onları ustopiya adlandırmağı təklif edir. Bu əsərlər həm də sırf, birtərəfli utopiya və ya distopiya təsiri bağışlamır, bu iki bir-birinə zidd istiqamətin hər ikisini özündə cəmləyir, əsərlərdə təsvir olunan, eyni cəmiyyət bir qrup uçun utopiya, digəri üçün distopiya təsiri bağışlayır. Bu da, E.Socanın məkanla bağlı araşdırmalarında əksini tapmış, məkana güc bölgüsü səbəbindən fərqli sosial-mədəni mahiyyət qazanmış bir mühit kimi yanaşmanı bədii şəkildə əks etdirmək deməkdir.

Bu tədqiqat zamanı əsasən mövzu ilə bağlı geniş tədqiqatlar aparmış D.Suvin, F.Jameson, T.Moylan, C.Freedman. N.Sadıqova, T.Mirzəzadə, N.Süleymanova kimi tədqiqatçıların əsərlərinə istinad edilmişdir. Bundan əlavə, ədəbiyyatşünaslıq və kino mətnlərinin təhlili ilə bağlı Q.Quliyev, T.Eagleton, R.Bart, L.Mulvey kimi tədqiqatçıların

araşdırmalarına müraciət olunub. Araşdırma tematik təhlilə uyğun olaraq, xronoloji ardıcıllıqla, çoxsaylı bədii ədəbiyyat nümunələri və kino mətnləri üzərində aparılmışdır. Buraya T.Mor, F.Bakon, H.Nevil, F.Qodvin, M.Kavendiş, C.Svift, S.Conson, S.Skot, E.B.Lytton. S.Butler, M.E.B.Lane, V.H.Hadson, E.Bellamy, V.Morris, F.C.Diksi, H.G.Uells, C.Hilton, B.F.Skinner, A.C.Klark, A.Haksli, U.LeGuin, K.Vonnequt, E.M.Forster, C.London, K.Burdekin, R.Bredberi, A.Börcesss, C.Oruell, M.Etvud, M.Pirsi, K.İşiquro, L.Louri, S.Kollins, C.Daşner, V.Ros, Y.Lantimos, S.Cons və başqalarının yaradıcılığı daxildir.

Qeyd olunan bədii ədəbiyyat nümunələri ilə yanaşı onların ekranlaşdırılmasına, bədii kino mətnlərində təqdimatına da nəzər salınmışdır. Bununla yanaşı, məhz kino ssenarisi şəklində qələmə alınmış “Truman Şousu”, “Pleasantville” kimi distopiya elementləri daşıyan, lakin utopiya kimi də təhlil oluna bilən bədii kino mətnləri, “Omar”, “O qadın”, “Ülgüclə qaçan” kimi düşündürücü, dərin distopiya mətnləri də təhlil edilmişdir. Bu zaman bədii əsərlərin sözlə toxuduğu dünya və bədii kino mətnlərinin təqdimat imkanlarının yaratdığı illüziya dünyasının xüsusiyyətləri təhlil olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyekti ingilisdilli ədəbiyyat və ingilisdilli bədii kino mətnləridir. Dissertasiya işinin predmeti utopiya və distopiya əsərlərinin formalaşmasını şərtləndirən amilləri, bədii-estetik aspektləri, inkişaf mərhələlərini, inkişaf istiqamətlərini və müasir dövrə uyğun xüsusiyyətlərini araşdırmaq üçün ingilisdilli ədəbiyyat və bədii kino mətnlərini müqayisəli şəkildə öyrənməkdən və təhlil etməkdən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi ingilisdilli utopiya/distopiya ədəbiyyatı və bədii kino mətnlərinin üslubi, ideoloji xüsusiyyətlərini, bu janrların formalaşma prosesini, bədii əsərlərdə müxtəlif dövrlərdə ictimai-siyasi, sosial proseslərin, tarixi hadisələrin reprezentasiyasını araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Utopiya və distopiya konseptinin İntibah dövründən başlayaraq fərqli tarixi dövrlərdə inkişaf dinamikasını və bədii əsərlərdə inikasını

təhlil etmək;

- Bədii utopiya və distopiya əsərlərində güc, nəzarət, idarəetmə və ideoloji təsir kimi mövzular vasitəsilə sosial-siyasi dəyişikliklərə münasibəti araşdırmaq;
- Utopiya və distopiya əsərlərini texnoloji inkişafın potensial inkişaf və təhlükə mənbəyi kimi təqdimatı, texnologiya və insan münasibətlərində etik dilemmaların təqdimatı vasitəsi kimi təhlil etmək;
- Utopiya və distopiya əsərlərini cəmiyyət, insan və ətraf mühit münasibətlərinin müzakirə platforması kimi təhlil etmək;
- Utopiya və distopiya əsərlərində təhkiyənin qurulması üsullarını araşdırmaq;
- Bədii utopiya və distopiyada zaman və məkan dinamikasını araşdırmaq;
- Utopiya və distopiya əsərlərinin şərhində yazıçı və oxucu/tamaşaçı mövqeyinin rolunu təhlil etmək;
- Bədii əsərlərdə utopiya və distopiya kəsişməsini təhlil etmək.

**Tədqiqat metodları.** Dissertasiya işində müqayisəli-tarixi, müqayisəli-tipoloji, təsviri, bioqrafik tədqiqat metodarından və mədəni-tarixi yanaşmadan istifadə olunmuşdur. Bundan başqa, elmi-nəzəri məsələlərə münasibəti dəqiqləşdirmək üçün Azərbaycan və dünya ədəbiyyatşünaslığında aidiyyatı üzrə əhəmiyyətli tədqiqat müəlliflərinə istinadlar edilmiş, onların problemə münasibətləri nəzərdən keçirilmiş, ədəbi-estetik, nəzəri-metodoloji xarakterli fikir və mülahizələrindən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** İngilisdilli ədəbiyyatda və bədii kinoda utopiya və distopiyanı araşdırmaq və mövzunu tam şəkildə əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Bədii utopiya və distopiya tarix boyu sosial-siyasi, texnoloji və ekoloji proseslərə cavab olaraq, cəmiyyətin dəyişən ideallarını və qorxularını əks etdirərək inkişaf etmişdir;
- Bədii distopiya əsərləri tez-tez utopiya illüziyasını təqdim edir, distopiya aspekti özünü əsərlərdə nəzarət və repressiyanın nizam və tərəqqi kimi maskalanmasında göstərir;
- İstər avtoritar, istər demokratik, istərsə də teokratik güc

strukturları həm bədii utopiya, həm də distopiya üçün əsasdır, burada idarəetmə, nəzarət və ideoloji nəzarətin təbiəti təsvir edilən cəmiyyətin trayektoriyasını müəyyən edir;

- Gənc-yetkin distopiya əsərləri daha çox müqavimət mövzusuna, şəxsi və ictimai azadlıq uğrunda mübarizəni simvolizə edən gənc qəhrəmanın yetkinlik səyahətinə əsaslanır. Bu əsərlər təzyiq, uyğunluq və texnoloji nəzarət kimi problemlərlə üzləşən gənc nəsillərin narahatlıqlarını və ümidlərini əks etdirir;

- Utopiya və distopiya əsərlərində texnologiya ya insanın inkişafı və tərəqqisi üçün bir vasitə kimi xidmət edir, ya da nəzarət mexanizminə çevrilir və insanlararası münasibətlərin süqutuna səbəb olur. Texnoloji idealizm və skeptisizm arasındakı bu gərginlik bir çox müasir distopiya əsərlərinin, xüsusən də rəqəmsal dövrdə qələmə alınmış əsərlərin əsas mövzusudur;

- Bədii utopiya və distopiya əsərləri müasir cəmiyyət normalarını, ətraf mühitin deqradasiyasını və təbiətin insan tərəfindən istismarının nəticələrini tənqid etmək üçün spekulyativ elementlərdən istifadə edərək sosial və ekoloji problemlərlə diqqət yönəldir;

- Apokaliptik və post-apokaliptik distopiya əsərləri ətraf mühitə etinasızlıq və ya sosial reqressiya səbəbindən sivilizasiyanın potensial dağılması barədə xəbərdarlıq mahiyyəti daşıyır;

- Utopiya/distopiya bədii mətnləri üçün zaman və məkan konfiqurasiyası əsərin üslub və ideyasının əsasında durur;

- Müəllif, mətn və oxucu / tamaşaçı arasındakı əlaqə bədii utopiya və distopiya əsərlərini şərhinin formalaşmasında həlledici əhəmiyyətə malikdir;

- Utopiya və distopiya arasındakı sərhəd çox vaxt kəskin olmur, bir çox əsərdə bu iki anlayış qovuşmuş olur, utopik ideallar həyata keçirildikdə, distopik reallıqlara çevrilə bilir. İdealizm və realizm arasındakı təzad bu iki qütbü başa düşmək üçün açar rolu oynaya bilər.

**Tədqiqatın elmi yeniliyi.** Qeyd olunduğu kimi, bədii utopiya və distopiya həm dünyada, həm də ölkəmizdə müəyyən dərəcədə araşdırılmışdır. Sistemli araşdırmalar əsasən müəyyən bir ölkəyə aid, klassik bədii ədəbiyyat nümunələrinin təhlilinə əsaslanır. Lakin son dövrlərdə, gənc-yetkin (Young Adult) ədəbiyyatında utopiya və distopiya özünəməxsus istiqamət kimi formalaşmışdır. Tədqiqat işinin

yeniliyi ondadır ki, həm geniş əhatə dairəsinə malikdir, həm də son dövr utopiya və distopiya ədəbiyyatına, xüsusilə onun gənc-yetkin qoluna ayrıca yer ayrılmışdır. Tədqiqat işi gənc-yetkin distopiya ədəbiyyatını sadəcə populyar bir alt janr deyil, əhəmiyyətli bir ədəbi janr kimi diqqət mərkəzində saxlayır. Bununla yanaşı, bu əsərlərdə müqavimət, şəxsiyyətin formalaşması və qəhrəmanın yetkinlik səyahəti mövzularını tədqiq etməklə dissertasiya işi bu bədii mətnlərin həm gənclərə, həm də daha geniş auditoriyaya aid ictimai-siyasi narahatlıqlarla əlaqəsini başa düşmək üçün ədəbi-tənqidi çərçivə təqdim edilir.

Bundan başqa, tədqiqat işi utopiya və distopiya janrını yalnız bədii ədəbiyyatda deyil, həm də bədii kino mətnlərində araşdırır. Utopiya və distopiya ilə bağlı tədqiqatların əksəriyyəti yalnız bir mədəni formaya yönəldilsə də, kino mətnlərini ədəbi diskursa daxil etməklə tədqiqat utopiya və distopiyanın müxtəlif bədii formalarda necə qurulduğunu təhlil edərək mövzunun əhatə dairəsini genişləndirir. Bu zaman mətnin xüsusiyyətləri, yazılı mətnlə müqayisədə oxşar və fərqli cəhətləri qeyd olunur. Bu elmi istiqamətlər arasında əlaqə texnoloji nəzarət, cəmiyyətin süqutu və fərdi azadlıq kimi mövzuların bədii ədəbiyyatda və kinoda fərqli şəkildə necə ifadə olunduğunu müqayisəli təhlil etməyə imkan verir.

Bundan əlavə, rəqəmsal dövrdən bəhs edən bədii əsərlərin, xüsusən də virtual reallıq, süni intellekt, texnoloji nəzarətin yaratdığı etik dilemmalar və insan münasibətləri kimi problemlərin təhlili ədəbiyyatşünaslığa yeni töhfədir.

Tədqiqat həm də distopiya ədəbiyyatında sosial problemlərin (məsələn, fərdiyyətçilik, ictimai parçalanma) və ekoloji problemlərin (məsələn, ekotopiyalar, iqlim fəlakətləri) reprezentasiyasını təhlil edir. Dissertasiya sosial-ekoloji yanaşma, sosial strukturlar və ətraf mühitin davamlılığı arasındakı qarşılıqlı əlaqəni vurğulayaraq, distopiya ədəbiyyatını başa düşmək üçün yeni bir üsul təqdim edir. Bu yeni perspektiv bədii distopiya əsərlərində əksini tapan sosial, ekoloji problemlərlə bağlı tənqidi diskursu genişləndirir.

Tədqiqat işi Yi-Fu Tuan və E.Socanın məkan haqqında nəzəriyyələrini ədəbi utopiya və distopiyanın tədqiqinə tətbiq edərək, bu iki ənənəvi dixotom janr arasında mövcud olan hibrid məkanları

təhlil etmək üçün yeni obyektiv təklif edir. Bu nəzəri tətbiq də ədəbi tənqiddə nisbətən az öyrənilmişdir.

Bundan əlavə, dissertasiya işində utopiya və distopiya əsərlərində zaman-məkan münasibətlərinə diqqət yetirmək spekulyativ bədii əsərlərin təhlilinə yeni, az öyrənilmiş yanaşma təqdim edir. Bu cür təhlil utopiya və distopiya ədəbiyyatında təhkiyə üsullarının öyrənilməsinə yeni baxış sərgiləyir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın müddəalarından, nəzəri və praktiki əhəmiyyət kəsb edən nəticələrindən ali məktəb dərsliklərində, metodik vəsaitlərdə istifadə oluna bilər. Bundan əlavə universitet müəllimləri və tələbələri, ədəbiyyatşünaslıq məsələləri ilə məşğul olan tədqiqatçılar və mütəxəssislər dissertasiyadan elmi-nəzəri mənbə kimi yararlana bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları və nəticələri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, eyni zamanda xarici ölkələrin müvafiq elmi ("Copernicus", "Erih Plus" "Web of Science", "Scopus" bazasında olan) nəşrlərində dərc etdirdiyi müxtəlif məqalələrində, onun bir sıra Beynəlxalq və Respublika səviyyəli elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya Giriş (15 731 işarə), beş fəsil (I fəsil 79 684 işarə, II fəsil 76 604 işarə, III fəsil 74 500 işarə, IV fəsil 87 840 işarə, V fəsil 73 632 işarə), Nəticə (7 196 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 415 187 işarədir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti qeyd olunur, tədqiqatın predmeti, vəzifələri və metodları, habelə dissertasiyanın müdafiəyə təqdim olunan müddəaları təsvir olunur.

Dissertasiyanın **"Utopiya, distopiya konseptinin tarixi kontekstdə inkişafı və bədii, estetik əsasları"** adlanan I fəsli üç paraqrafdan ibarətdir. **"Bədii düşüncədə utopiya və distopiya problemi"** adlanan birinci paraqrafda utopiya və distopiya ideyalarının əks olunduğu ilk bədii mənbələr haqqında qısaca məlumat verilir. Qeyd olunur ki, utopiya və distopiya fikirlərinin ilkin təcəssümünü fəlsəfə, bədii və siyasi düşüncənin qovuşduğu əsərlərdə tapması təsadüfi deyildir, utopiya və distopiya əsərləri müəlliflərin müasiri olduqları problemlərlə səsləşir, şahidi olduqları proseslərə münasibətlərini təcəssüm etdirir.

Ümumiyyətlə utopiyanı bu şəkildə müəyyənləşdirmək olar: "*Utopiya, sosial-siyasi qurumların, normaların və fərdi münasibətlərin müəllifin icmasına nisbətən daha mükəmməl bir prinsipə görə təşkil olunduğu, alternativ tarixi fərziyyədən irəli gələn, özgələşməyə əsaslanan, müəyyən yarı-insan cəmiyyətinin verbal quruluşudur"*[2]. Deməli, utopiya müasiri olduğu problemlərin yazıçının təsəvvüründəki həllidir. Həll üçün alternativ tarix və ya alternativ gələcək təsvir olunur. Bu cəmiyyət sırf insanlardan deyil, fərqli varlıqlardan təşkil oluna bilər. Əsas məsələ firavanlıq və bir fərdin deyil, toplumun ideal yaşayışının təmin olunduğu cəmiyyətin formalaşmasıdır.

Fridman isə utopiyanın qeyri-empirik xüsusiyyətini və kollektiv mahiyyətini xüsusi olaraq vurğulayır.

Distopiyadan danışarkən onu qeyd etmək yerinə düşər ki, distopiya bir növ keçici çətinlik deyil, davam edəcək, sonda məhvə məhkum bir vəziyyətdir. Ən qorxulusu da odur ki, distopiyaların böyük əksəriyyəti proqnozlaşdırılan gələcəkdir. Utopiya ilə müqayisə

---

[2] Suvin, D. Defined By A Hollow Essays On Utopia, Science Fiction and Political Epistemology / D.Suvin. – Bern: Peter Lang AG, International Academic Publishers, – 2010. – p.30

edildikdə distopiyanın daha praktik, reallıqla daha səsləşən yanaşma olduğu görünür. Bu mənada utopiya arzu, illüziya kimi qəbul edilirsə, distopiya tarixdə baş vermiş real hadisələrdən bəhrələnən, bu gün baş verənlərin analizinə söykənən xəbərdarlıq mahiyyətli proqnoz kimi qəbul edilə bilər. Bu zaman mətnin xarakteri ikinci plandadır. Yəni bədii mətnlər yazıçı təxəyyülünün məhsulu kimi deyil, qaçılmaz hadisə olaraq qəbul edilir. Utopiya ilə müqayisədə distopiya daha çox siyasi, tənqidi xarakterlidir. G.Claeys bu mövzunu təhlil edərkən qeyd edir ki: *"Bu fikirlə başlaya bilərik ki, bədii ədəbiyyat çox vaxt bizi əyləndirmək məqsədi daşıya bilər, lakin distopiya ədəbiyyatının əksər hallarda daha yüksək məqsədi var"*[3].

N.Sadıqova da vurğulayır ki, *"Əgər utopiya müəyyən ideal sosial dəyərlər əsasında kamil cəmiyyət modelini təklif edirsə, antiutopiya bu modelləri tənqidi baxımdan sərf-nəzər edir; bu iki ədəbi-fəlsəfi janr dialektik vəhdətdə bir-birini tamamlayır*".[4]

Ümumiyyətlə, utopiya və distopiya üçün insanın problemləri, yaşayış şərtləri və düşüncəsi önəmlidir, utopiya və distopiya müəyyən bir vəziyyətdən çox vəziyyətə yanaşmadır və eyni terminlə, spekulyativ olaraq tanınan elmi-fantastika, fentezi və s. kimi əsərlərlə müqayisədə gerçəkliklə daha çox əlaqəlidir. Utopiya/distopiya əsərlərində əksini tapan hadisələr, sosial, siyasi, tarixi proseslər baş verib və ya hal-hazırda gedən proseslərə əsasən baş verməsi mümkün görünür. Utopiya və distopiya nə qədər qeyri-real görünsə da gerçəklikdən qidalanmaya bilməz. Digər bir məsələ isə utopiya və distopiyanın siyasətlə bağlılığıdır. Siyasi rejimlər, dövlət quruluşları və onların yeritdiyi siyasət cəmiyyəti utopiya ya da əksinə distopiya dünyasına apara bilər.

I fəslin "**Erkən bədii konsepsiaylar**" adlanan ikinci paraqrafının *birinci bənd*ində İntibah dövrünün ideyalarını əks etdirən utopiyalar və onlarda təcəssümünü tapan ideal dövlət anlayışı təhlil olunur. İngilis ədəbiyyatında utopiya fikirlərinin yer aldığı bədii mətnlərdən danışarkən ilk olaraq üç bədii əsəri qeyd etmək yerinə

[3] Claeys, G. Dystopia. A Natural History / G.Claeys. – Oxford: Oxford University Press, – 2017. – p.269

[4] Sadıqova, N. Utopiya və antiutopiya ədəbi prosesdə. Nəzəriyyə və təcrübə / N.Sadıqova. – Bakı: Elm, – 2006. – s.166.

düşür. T.Morun "Utopiya", F.Bakonun "Yeni Atlantis", H.Nevilin "Şam adası" əsərlərində dünyanın məlum bölgələrindən ayrılmış şəkildə, mövcud dünyadan sanki kənarda alternativ bir dünya yaradılır. Bu əsərlər üçün spesifik xüsusiyyət odur ki, onlar *"...nə insanı nə də təbiəti ideallaşdırır; təşkilatı ideallaşdırır"*[5]. Təşkilat deyərkən dövlət quruluşu, xüsusilə ideal dövlət anlayışı nəzərdə tutulur. Əsərlərin yazılmış olduğu intibah dövründə yeni kəşflərə, yeni imkanlara olan marağı nəzərə alaraq, bədii şəkildə ilk qələmə alındığı dövrlərdə utopiyanın yalnız fikir kimi deyil bir inam kimi də mövcud olduğunu demək olar. Adı çəkilən işlərin digər maraq doğuran tərəfi isə onların dövrün qabaqcıl siyasi xadimləri və elm adamları tərəfindən qələmə alınması, lakin bədii əsər şəklində yazılmasıdır.

İlkin utopiya fikirlərinin yer aldığı əsərlərdə bir neçə ortaq məqam vardır. T.Morun utopiyası bir neçə cəhətdən Platonun "Dövlət" əsərini xatırladır. T.Mor da Platon kimi belə bir qənaətdədir ki, krallar elm və fəlsəfə ilə məşğul olmasa, idarəetməçilik adil olmayacaq. Diqqəti çəkən əsas məsələ isə Platonda olduğu kimi fərdi mülkiyyətin ləğvi ideyasıdır. *"Mülkiyyətin fərdi olduğu, pulun hər işi həll etdiyi ölkə ədalətlə idarə oluna və inkişaf edib çiçəklənə bilməz"*[6]. T.Mor ənənəsi sonrakı dövrlərdə qələmə alınmış utopiya əsərləri üçün özül rolunu oynamışdır. Lakin bu əsərlərin ən əsas ideyasını vurğulamaq lazım gələrsə, bunun fərdi mülkiyyətin ləğvi olaraq qaldığını qeyd etmək olar. Xüsusilə sosial-siyasi xarakterli çağırışla xarakterizə olunan, ciddi reformalara dəvət edən Morris, Bellami kimi yazıçıların utopiya əsərləri məhz bu fikir ətrafında qurulur.

T.Morun utopiyasındakı ikimənalılıq və satira xüsusi olaraq diqqəti cəlb edir. Əsərin qəhrəmanının adı "Hythloday" – "cəfəngiyyat paylayan" mənasını verir. Halbuki, ideal cəmiyyətin bütün cəhətlərinin təsvir və izahını verən də bu adamdır. Əsərin sonunda Mor, əsərin əvvəlindən səyahətlərdə təcrübə qazandığını vurğulayan, utopiya cəmiyyətinin dövrün məlum cəmiyyətlərindən üstünlüklərini sadalayan qəhrəmanın əlindən tutaraq onu istiqamətləndirməyə çalışır.

[5] Oxford World's Classics. Three Early Modern Utopias / Edited with Introduction and Notes by S. Bruce, – Oxford: Oxford University Press, –1999. – p.13
[6] Oxford World's Classics. Three Early Modern Utopias / Edited with Introduction and Notes by S. Bruce, – Oxford: Oxford University Press, –1999. – p. 44

Bu, sanki reallaşmayacaq, absurd utopiya fikirlərinə aludə olan insanın yolunu itirəcəyinə, qeyri-real arzularda qeyb olacağına işarədir. Göstərilən məqamlar T. Morun əsərinin fərqli səpkilərdə, ciddi, reformist fikirlərin və ya satirik tənqidi yanaşmanın yer aldığı bir əsər olaraq təhlil edilməsinə yol açmışdır. Zənnimizcə, bu təhlil istiqamətləri Morun əsasını qoyduğu utopiya və distopiya alternativ dünyası ənənəsini davam etdirən bütün bədii əsərlər üçün keçərlidir.

Bu dövrdə bənzər fikirlərin əks olunduğu utopiyalardan danışarkən Marqarit Kavendişin "Alovlu dünya" utopiyasını da vurğulamaq yerinə düşər. M.Kavendişin dövrünün əsilzadə xanımlarından olub yaşadığı zaman üçün özünəməxsus cəsarəti ilə seçildiyini demək olar. Onun ədəbi fəaliyyəti, xüsusilə xanımın yaşadığı dövrü əsas götürdükdə, kifayət qədər heyrət doğurur. Özünün də qeyd etdiyi kimi "Alovlu dünya" əsəri bir romantika, fantaziya məhsuludur. *"Birinci Marqaret olaraq ... öz dünyamı yaratmışam"*[7], deyən müəllif bir qadın yazıçı olaraq belə bir xəyal dünyası yaradıb özünü onun imperatriçəsi, birinci Marqaret hesab etməsinə görə heç kimin onu qınamağa haqqı olmadığı qənaətindədir. Çünki o bir qadın olduğu üçün Böyük İsgəndər kimi ərazilər fəth edib gerçək dünyada imperator statusu qazanmaq imkanından məhrumdur.

Qeyd olunduğu kimi, ilk ingilisdilli utopiya əsərlərini birləşdirən müəyyən xüsusiyyətlər vardır. Onlar ilk növbədə dəniz səyahətləri ilə bağlıdır. Buna səbəb əsərlərin yazıldıqları dövrün yeni səyahətlər dövrü olmasıdır, dənizin rolu və dövr üçün əhəmiyyəti olduqca böyük olduğundan utopiya dövlətləri də məhz dəniz səyahətində kəşf olunur. Hər bir əsərdə təsvir olunan cəmiyyət məlum dünyadan getmiş bir şəxs tərəfindən yaradılıb. Onlardan heç biri dünyanın digər bölgələri ilə sıx ünsiyyət saxlamaq fikrində deyil, bu icmalar özlərini kənardan dəstək almadan təmin etmək iqtidarındadır. Yalnız M.Kavendişin qəhrəmanı yaradıcısı naməlum olan bir dünyadadır və qəhrəman sadəcə müşahidəçi deyil, o, dünyanın inkişafı üçün də xidmət göstərir. Əsərlər dövrün tanınan siyasət və elm adamları tərəfindən yazılsa da bədii əsərlərdir. Bu heç də yazıçıların haqqında danışdıqları problemləri uydurma hesab etmələri ilə əlaqədar deyil. Əksinə, əsərlər birinci

[7] Cavendish, M. The Blazing World and Other Writings / M.Cavendish. – London: Penguin Books, –2004. – p.154

şəxsin dilindən yazılır və real tarixi şəxslərə istinad edilməsi, real dünya dövlətləri, idarəetmə sistemləri ilə müqayisələr, əsərlərin içərisində qəhrəmanlar tərəfindən fərqli şəxslərə ünvanlanmış məktublar, bəzən təqdim olunan saxta xəritə və adaların şəkli yazılanların doğru olmasını əsaslandırmaq məqsədi daşıyır. Yalnız M.Kavendiş əsərinin təxəyyül məhsulu olduğunu açıq şəkildə qeyd edir və yazılma səbəblərini izah edir. Müəlliflər dövr hadisələrini müşahidə və təhlil etmək bacarığı nümayiş etdirən şəxslər olduğundan əsərlərdə dövrün siyasi, sosial, mədəni və iqtisadi prosesləri müəllifin fikir süzgəcindən keçərək əksini tapmış olur. Bununla da haqqında söhbət açılan utopiya əsərləri sadəcə bədii təxəyyülün məhsulu olmaqdan çıxıb düşünən insanların dövrün və ölkənin problemlərini həll etmək üçün bədii şəkildə təqdim etdiyi yollar kimi qəbul edilə bilər.

İkinci paraqrafın *ikinci bəndi* səyahət utopiyası və ilk distopiya elementlərindən söz açır. Dəniz səyahətləri ilə utopiya dövlətlərinin kəşfi ənənəsi bədii ədəbiyyatda geniş yer tutaraq həm də roman janrının inkişafı ilə sıx əlaqəli olan bir istiqamətdir. XVIII əsr ingilis ədəbiyyatında bu istiqamət müəyyən qədər C.Svift və S.Conson yaradıcılığında araşdırıla bilər. Bu dövrdə ingilis ədəbiyyatı inkişaf edən, imperiya gücü olan, durmadan koloniyalarını genişləndirən və qonşularından irəlidə olan aparıcı bir Avropa ölkəsində formalaşırdı. Bu, ölkə daxilində bütün problemlərin həll olunmuş olması anlamına gəlmir. Ölkə daxilində sosial qeyri-bərabərlik, dini inanc fərqlilikləri və siyasi qarşıdurmalar da yox deyildi. Dəniz səyahəti dövr üçün əhəmiyyətini saxladığından utopiya əsərləri dəniz səyahətlərini əks etdirir, lakin bu səyahətlərdə kəşf olunan utopiya dövlətlərin təsvirini deyil, qəhrəmanların utopiya axtarışını, hətta bilavasitə bu ideal cəmiyyətin formalaşmasında iştirakını və ya mənəvi təkmilləşməsini əks etdirir. Bu da onu əvvəlki dövrlərdən fərqləndirir. Deməli, XVI əsrdə səyahət utopiyası fiziki yerdəyişmədirsə, XVIII əsrdə həm də mənəvi səyahət deməkdir. S.Conson əsərin adının "Abisina şahzadəsinin həyat seçimi və hekayəsi" olmasını nəzərdə tuturdu. Bu ad əslində yalnız bir əsərin deyil, dövrün utopiya əsərlərinin bölüşdüyü ideyanın əksidir. Çünki bu əsərlərdə səyahət həyat seçimi, yeni həyat axtarışıdır. Bu axtarışda mənəvi yüksəliş xüsusi yer tutur.

Bu dövrdə qələmə alınmış digər bir maraqlı əsər isə Sarah Skotun “Millenium zalı və qonşuluğundakı kəndin təsviri” əsəridir. Feminist utopiyası tədqiqatçılarının xüsusi olaraq diqqətini cəlb edən bu əsər müəllifin şəxsi həyatı ilə, dövrünün müəyyən sosial prosesləri ilə bağlılığı ilə yanaşı əsasən qadınların yaratmış olduğu bir utopiya cəmiyyətinin təsviri ilə seçilir. Haqqında danışılan digər əsərlərdəki kimi bu əsərdə də müəyyən mənada utopiya səyahəti vardır və bu, sırf əxlaqi dəyərlərin kəsb olunduğu mənəvi səyahətdir. Müəllifin yaşadığı dövrdə qadınlardan gözlənilən keyfiyyətləri nəzərə alaraq bu səyahətin müəllifin nəzərində yeganə düzgün istiqamət olduğunu demək olar. Buna görə də, qeyd etmək olar ki, utopiya ədəbiyyatı yarandığı ilk dövrlərdən real hadisələrə əsaslanan, mütərəqqi islahatlara bəzən dolayısı yolla, bəzən də praktik şəkildə nail olmaq cəhdidir.

Formalaşmağa başladığı dövrdən utopiya əsərlərində siyasi və ictimai tənqid özünü həm də distopiya elementlərində göstərir. Maraqlı cəhət odur ki, bu iki bir-birinə əks görünən istiqamət eyni əsərlər daxilində inkişaf edir. Bu mənada C.Svift yaradıcılığı xüsusi ilə maraqlıdır. Yazıçının “Qulliverin səyahətləri”əsərində təsvirini tapan bir çox məqamlar, istər adətlərin təsviri, istərsə də absurd siyasi ixtilafda olan partiyaların, dünyanın hökmranı, gülünc titullara malik olan kralın və burada mövcud olan, yanaşı yaşaya bilməyən, bir-biri ilə müharibədə olan iki ölkənin təsviri müəllifin kəskin siyasi satirasını göstərir.

Əsərdəki distopiya elementləri özünü qəhrəmanın ölçüsündə, arzulamadan, olduğu yerə nisbətdə nəhəng və ya çox balaca olduqda, yəni yerə və şəraitə uyğun gəlmədikdə daha açıq-aydın nəzərə çarpır. Əsərin quruluşu da distopiya xarakterində qurulub; tədricən səfərlər daha çətin, kəşf olunan yeni yerlər daha depressiv, qəhrəman daha ümidsiz xarakter alır. Bu xarakter ən kəskin şəkildə qəhrəmanın “Houyhnhnms” səyahətində nəzərə çarpır. Digər səfərlərdə Qulliverin rastlaşdığı icmalar satirik çalarlarla əksini tapırsa, bu səyahətində tənqid olunan, qəhrəman və onun aid olduğu varlıq – insandır. Beləliklə, insan təbiətinin və cəmiyyətinin ən kəskin tənqidi “Houyhnhnms” icmasının təsvirində hiss olunur. Burada insanların yaşayış tərzi insanların potensial alçalması və mənəvi yoxsulluğunun təsvirinə çevrilir.

Göründüyü kimi, İngilis ədəbiyyatında XVI əsrdə başlayan səyahət utopiyası XVIII əsr bədii ədəbiyyatında macəra dolu səyahətlərə can atan, bununla həm maddi, həm də mənəvi rifaha nail olacağını düşünən qəhrəmanların hekayəsinə çevrilir. Burada səyyahların çatacağı mənzildən çox bu mənzil üçün qət etdikləri yol önəm daşıyır. Buradakı utopiya sadəcə maddi rahatlıq içərisində keçən firavanlıq deyil, mənəvi dinclik, ruhi sakitlik və əqli inkişafdır. Bu dövrdə bədii utopiya özündən əvvəlki səyahət ənənəsini davam etdirsə də qəhrəman obrazının inkişafı baxımından da fərqlidir. Çünki, qeyd olunduğu kimi, burada səyahət həm fiziki olaraq dünyanı gəzmək, həm də bir mənəvi səyahət anlamı qazanır. Bu səyahət qəhrəmanların yeni həyat axtarışından qidalanır və nəticədə onlar mənəvi kamilliyə, rahatlığa nail olur və ya müəyyən biliyə yiyələnirlər.

Birinci fəslin **“Bədii utopiya və distopiyada erkən reformist fikirlər”** adlanan üçüncü paraqrafının *birinci bəndi* bədii utopiya əsərlərində reformist bədii düşüncənin inikasını təhlil edir. Utopiya cəmiyyətlərinin ilkin təsvirindən başlayaraq təkrarlanan bir fikir vardır: şəxsi mülkiyyətin ləğvi. XIX əsrin ikinci yarısında sosializm, kommunizm ideyaları eyni fikrə əsaslanır, rifahı ümumi maraqlara xidmət etməkdə görən yanaşmalar sərgilənirdi, işçilər və kapitalistlər arasında ciddi ziddiyyət yaranmışdı. Bu vəziyyətin aradan qaldırılması, daha humanist cəmiyyətin qurulması, bərabərhüquqlu təhsil, iş bölgüsü və balanslı münasibətlərin formalaşdırılması kimi məsələlər gündəmdə idi. Bu kimi problemlər V.Morrisin “Olmayan yerdən xəbər” əsərində təsvirini tapmış əsas məsələlərdir. Bir qayda olaraq, utopiya yaradarkən hər bir yazıçı özünün həllini vacib hesab etdiyi məsələləri utopik cəmiyyətdə həll olunmuş kimi təsvir edir. Morrisin utopiyasında da ailə münasibətləri, şəhər kənarı və şəhər münasibəti, sosial həyat, şəhər abadlığı kimi məsələlərə diqqət yetirildiyi nəzərə çarpır. Morrisin utopiyasında XIX əsr ən miskin dövr, sosializm və kommunizm isə ən ideal yaşam tərzi hesab olunur. Əsər utopiya ədəbiyyatında özünəməxsus iz qoymuşdur.

Bu dövrdə qələmə alınmış daha bir utopiya da maraq doğurur. Elizabet Korbettin “Yeni Amazoniya: Gələcəyin dadı” feminist utopiyası Hampri Vardın “Qadın seçki hüququna qarşı müraciət” adı altında çap olunmuş, yüzdən artıq qadının imzası olan açıq məktubuna

cavab olaraq yazılmışdır. Bənzər mövzuda qələmə alınmış daha bir feminist utopiyası da bu dövrə təsadüf edir. Feminist elmi-fantastikası hesab olunan bu əsər "Qlorina və ya 1900-cü ilin inqilabı" adlanır və dövrün qadın haqları uğrunda fəal mübarizəçisi olan Leydi Florenes Karolayn Diksi tərəfindən qələmə alınmışdır. Əsərdə texnoloji tərəqqi və sosial islahatların bərabərhüquqlu və mütərəqqi dünyaya gətirib çıxardığı, 1900-cü ildə qurulmuş utopiya cəmiyyəti təqdim olunur. Lakin romanda belə bir cəmiyyətə nail olmaq yolunda, xüsusən də kök salmış güc strukturlarını və qərəzli ictimai münasibətləri aradan qaldırmaqla bağlı üzləşə biləcəyimiz çətinliklər və maneələr də vurğulanır.

Bu paraqrafın *ikinci bəndi* siyasi islahatlara çağırış xarakterli utopiya əsərlərinə satira olaraq qələmə alınmış distopiya əsərlərini təhlil edir. Uğursuzluğa uğramış utopiya, utopiya satiraları müəyyən dövrə qədər davam etmiş ənənədir. Bu dövrdə qələmə alınan əsərlərdə tez-tez insan ömrünün lazımı həddə saxlanılması və ya insan fəaliyyətinin müəyyən yaşa qədər məhdudlaşması fikri yer alır. Bunu təbiətin insan irqinə verdiyi hədd kimi dəyərləndirən əsərlərdən biri Anton Trolopun "Sabitlənmiş zaman" satirik distopiyasıdır. Anna Bouman Dodd da bənzər şəkildə utopiya satirası qələmə almışdır. Onun "Gələcəyin respublikası: və ya reallığın sosializmi" əsəri utopiya ədəbiyyatına cavab olaraq dəyərləndirilə bilər. Utopik cəmiyyətdəki çatışmazlıqlar onu daha çox distopiyaya çevirmişdir: *"İnsanı və xalqı möhtəşəm edən mübarizənin yoxluğu deyil, olmasıdır"*[8]. Rəqabətin ləğvi ilə fərdi mübarizədən gələn gəlir və mükafat da təbii olaraq yoxa çıxmışdır. Əsərdə daha bir maraqlı məqama aydınlıq gətirilir. Tam bərabərlik üçün insanların hamısının bəlli bir standart içərisində qalması vacibdir. Deməli əqli, fiziki, yaradıcı gözləntilər aşağı səviyyədə, hər kəsin çata biləcəyi səviyyədə saxlanmalıdır. Hamının bərabər olduğu bu utopiya / distopiyada hami bərabər şəkildə küt və məqsədsizdir.

Daha bir utopiya/distopiya xarakterli əsər epistolyar formada İqnatius Donelli tərəfindən qələmə alınmış "Sezar sütunu" əsəridir. Əsər maraqlı bir məsələyə toxunur, aid olduğu sosial təbəqədən asılı

---

[8] Dodd, A.B. The Republic of the Future: or, Socialism a Reality / A.B. Dodd. – New York: Cassell and Company, Limited, – 1887. – p. 72.

olmayaraq hər bir insanın təbiətində vəhşilik meyli var. İki sosial təbəqənin qarşıdurmasını təsvir edən əsərdə üsyan edən insan kütləsi aristokratiyadan heç də fərqli olmayan acgözlük, vəhşilik və zalımlıq nümayiş etdirir.

Göründüyü kimi, ilk dövrlərdə utopiya əsərlərinin tərənnüm etdiyi aspektlər, cəmiyyətdə güc, gender bərabərliyi, insan əməyinə hörmət, yeniliklərin insanın həyat tərzinə təsiri kimi ümumilikdə firavan yaşayışı təmin etməli olan xüsusiyyətlər qeyd olunan əsərlərdə yeni bir şəkildə təqdim olunur. Sadalanan amillərdən hər hansı birinə ifrat aludəçilik əslində insanı utopiyaya deyil, distopiyaya aparıb çıxarır. Bu əsərlərdə insan həyatı üçün əmək və mübarizə əsas inkişaf motivasiyası kimi təqdim olunur.

Bununla yanaşı, insan təbiəti, zorakılığa meyl, nəfsinə hakim ola bilməmək, qisas duyğusu kimi mənfi xarakterik xüsusiyyətlər insanlığın utopik yaşayış qurmasına əngəl olan başqa bir məsələdir. Hətta müasir dövr distopiya əsərlərinə, gənc-yetkin distopiya ədəbiyyatına nəzər saldıqda da bu fikrin əksini tapdığını müşahidə etmək mümkündür. Bu da bizi distopiya əsərlərində ən aparıcı mövzulardan birinə çevrilmiş güc və nəzarət probleminə aparır.

Bu fəsildə aparılan təhlillər və qənaətlər "Distorted Reflection of Reality. Satire in Utopia", "Stoaçılıq fəlsəfəsi və utopiya", "İngilis ədəbiyyatında səyahət utopiyası", "Utopiya ədəbiyyatında siniflərarası ziddiyyətin əks olunması və islahatlara çağırış", "Nizami Gəncəvi yaradıcılığında utopiya fikri", "Bədii fikirdə distopiya elementləri"[9] adlı məqalə və tezislərdə dərc edilmişdir.

---

[9] Hacıyeva, M. Distorted Reflection of Reality. Satire in Utopia // Akdeniz Zirvesi 3. Uluslararası Sosyal Bilimler Kongresi, – Girne: – 17-18 Ekim, – 2020, – p.147-152; Hacıyeva, M. Stoaçılıq fəlsəfəsi və utopiya // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V Beynəlxalq elmi konfrans, – Bakı: – 30 noyabr, – 2020, – s.63-65; Hacıyeva, M. İngilis ədəbiyyatında səyahət utopiyası // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, – 2020. № 2 (19), – s.130-136; Hacıyeva, M. Utopiya ədəbiyyatında siniflərarası ziddiyyətin əks olunması və islahatlara çağırış // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, – 2021. № 2 (21), – s.53-62; Hacıyeva, M. Nizami Gəncəvi yaradıcılığında utopiya fikri // Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən Respublika Gənclər konfransı. – Bakı: – 7 noyabr, – 2021, – s.100-105; Hacıyeva, M. Bədii fikirdə distopiya elementləri // Elmi iş. Beynəlxalq elmi jurnalı. VII Respublika Elmi Qaynaqlar konfransının materialları. – Bakı: – 4 may, – 2022, – s.23-26.

Dissertasiyanın II fəsli **“İdarəetmə və nəzarət bədii distopiya əsərlərinin əsas mövzusu kimi”** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəslin **“Bədii distopiya əsərlərində güc, nəzarət və cəmiyyət qarşıdurması”** adlanan birinci paraqrafının *ilk bəndində* bədii distopiya əsərlərində totalitar güc və dövlət probleminin təsviri təhlil olunur. Bu mövzudan danışarkən Cek Londonun “Dəmir daban” əsərini qeyd etməmək mümkün deyil. Cek London digər əsərlərindən çox fərqlənən bu distopiyasını sosial-siyasi problemlər ətrafında qurur. Əvvəlki dövr utopiya, distopiya əsərlərində də totalitar rejimin təsviri yer alsa da, Cek Londonun ilk dəfə distopiyanın bu başlanğıcının mükəmməl təqdimatına nail olduğunu demək olar. Sonrakı dövrlərdə qələmə alınmış “1984” (C.Oruell), “Damazlıq qızın əhvalatı” (M.Etvud) kimi distopiya əsərlərində bənzər başlanğıcın inkişafını müşahidə etmək mümkündür.

Ümumiyyətlə, distopiya ədəbiyyatından danışarkən ilk yada düşən ad isə C.Oruelldir. Müəllifin “1984” distopiyası sanki distopiya ədəbiyyatında özünqədərki fikirləri cəmləyir və özündən sonrakı əsərlərin ideya istiqamətinə təsir edir. Oruellin distopiyasında maraqlı məqamlardan biri kütlənin tabe edilməsi formasıdır. Buraya hərbi təzyiq, işğal, cəza metodları ilə yanaşı ideoloji təsir də daxildir. Distopiya əsərlərindən bir çoxu (“Dəmir daban”, “1984”, “Svastika gecəsi”, “Himn”) məhz bu mövzudadır. Oruellin distopiyasının niyə hələ də diqqəti bu qədər cəlb etməsi asanlıqla izah oluna bilər. 2016-cı ildə Hələbdəki vəziyyəti təsvir edən məqalələr və döyüş bölgələrində çəkilmiş şəkillər: “*Hələb: İnsanlığın tam süqutu”*[10] yazısı ilə müşayiət olunurdu. Demək olar ki, hər gün dünyada oxşar proseslər haqqında məlumat almaq, xəbər oxumaq mümkündür. Oruell distopiyasının qəhrəmanını düşündürən suallardan biri belədir: *“Necə olduğunu başa düşürəm: niyə olduğunu başa düşmürəm”*[11] və Oruellin ifadə etdiyi bu dilemma elə indi də, müasir dövrün belə absurd qeyri-insani və izaholunmaz şərtləri ilə tez-tez qarşılaşıldığı zaman keçirdiyimiz müəmmalı hisslərin ifadəsi kimi səslənir. Oruell distopiya dünyasının

---

[10] Aleppo: “A complete meltdown of humanity”: [Electronic resource] / Euronews. – Brussels, – 2016. URL: https://www.euronews.com/2016/12/13/aleppo-a-complete-meltdown-of-humanity

[11] Orwell, G. 1984 / G. Orwell. – London: Secker and Warburg, – 1949. – p.80

təfərrüatlı mənzərəsini elə dəqiqliklə yaratmışdı ki, ümidsiz bəşəriyyətin çöküşünü və ya totalitar rejimi təhlil edərkən vəziyyəti "Oruellsayağı" deyə təyin etmək mümkündür.

Totalitar rejimin insanlara təzyiq vasitələrini dəqiqliklə ifadə edən əsərin daha bir maraqlı xüsusiyyəti var. Distopiya əsərlərində adətən, nəticə etibarilə, vəziyyətin dəyişilməsinə səbəb olacaq mübarizə də təsvir olunur. Oruellin distopiyasında da Vinstonun diktə edilən qaydalardan kənara çıxması qəhrəmanın cəsarətinin, dəyişikliyə ümidin nümayişi kimi görünə bilər, amma əslində Oruellsayağı distopiyada cəsarət, ümid kimi keyfiyyətlərə yer yoxdur. Buna görə də, sonda Vinston sistemin ən avam qurbanlarından birinə çevrilir və sanki müəllif bu müqavimət hərəkatına inanaraq tora düşmüş, Avropanın son cəsarətli adamı adlandırdığı, qəhrəmanını ələ salaraq distopiyasını belə ümidsiz sözlərlə bitirir: *"Gələcəyin şəklini təsəvvür etmək istəyirsənsə, insanın üzünə həmişəlik möhürlənmiş çəkmə izini təsəvvür et"* [12]. (If you want a picture of future, imagine a boot stamping on a human face – forever.) Bu xüsusiyyət 2011-ci ildən başlayaraq serialar şəklində ekranlaşdırılan "Qara güzgü" distopiya seriyasını yada salır. Müasir dövrün ən qorxulu problemlərini qabarıq şəkildə təsvir edən bu distopiya seriyasının bir çox bölümündə də ümidsizlik, gələcək fəlakətdən qaçış yolunun olmaması fikri tamaşaçıda, Oruellin oxucusunda olduğu kimi, dərin vahimə oyadır. Ətrafdakı proseslərdən tam xəbərdar olduqdan sonra distopiya dünyasının nə qədər yaxın olduğu anlaşılır. Bu, şəxsi ambisiyaların üstünlük təşkil etdiyi və əsas insani dəyərlərin dəyişdiyi dünyadır.

Oruell distopiyası ümiddən məhrum olan, iki əsas özül üzərində qurulmuş bir dünyadır – yalan və qorxu. Rituallar nəzarət və kollektiv aldatma məqsədinə xidmət edir. Əsas bəşəri dəyərlərdən, ailə birliyindən, sağlam düşüncədən məhrum olan cəmiyyətin ortaq bir cəhəti var – nifrət. Ancaq bütün təhlükələrin ən böyüyü ümidsizlikdir. Oruell təkcə distopiya dünyasının necə qurulduğunu deyil, həm də bəşəriyyətin niyə bu heçlikdə bitdiyini izah edir. Oruellin yaratdığı dünya ümidin ümidsizliklə əvəzlənməsi, xatirələrin sönməsi, məntiqin sıxışdırılması, yalan və qorxu vasitəsilə hiss və emosiyaların aşınması zamanı insanlığın başına nə gələcəyinə bir baxış kimidir. Xəbərdarlıq

---

[12] Orwell, G. 1984 / G. Orwell. – London: Secker and Warburg, – 1949. – p.270

mahiyyətli distopiyanın səbəbi, fərqinə varılsa, nəzarət edib qarşısı alına biləcək səbəbi, budur.

Beləliklə, adı çəkilən əsərlərdən də göründüyü kimi, güc və dövlətin idarə olunması distopiya ədəbiyyatında qırmızı xətlə keçir. Tarixdə baş vermiş hadisələr bu əsərlər üçün aktual mövzu təqdim edir.

Bu paraqrafın *ikinci bəndində* fikirlər davamı etdirilərək bədii distopiyada milliyyətçilik, faşizm və demokratiya mövzusunu təhlil edilir. Tarixin müəyyən dönəmində güclü mövqe qazanmış sosializm, faşizm kimi aparıcı ideoloji istiqamətlər distopiya ədəbiyyatında kollektivist mahiyyətli totalitar siyasi rejimlərin geniş tənqidinə yol açmışdır. Buna görə də, bir sıra əsərlər alternativ tarix şəklində qurulur və adı çəkilən rejimlərdən müəyyən birinin qələbəsi, genişmiqyaslı təsiri baş verərsə dünyanın mənzərəsinin necə dəyişəcəyini təsvir edir. Belə maraqlı əsərlərdən biri "Vilyam gələndə" əsəridir. Ümumilikdə əsər sırf Britaniya üçün müharibə və onun nəticəsi barədə narahatlığın əksidir. Bu qorxu, gələcəyə dair duyulan təşviş ümumiyyətlə, distopiya əsərlərinə xas olsa da, dövrün hadisələri gələcəyin həqiqətən faciəli olacağını əsaslandırırdı. Bənzər faşizm təhdidi qorxusunu distopia əsərində əks etdirən Sinclar Lyuis də "Burada baş verə bilməz" siyasi distopiyasında A.Hitler və B.Mussolinidən çox da fərqlənməyən bir senatorun qalib gəldiyi distopiya dünyasını təsvir edir. Dövrün faşizm ideologiyasına münasibətini, heyranlığını nəzərə alaraq belə bir əsərin aktual olduğunu asanlıqla başa düşmək olar. Faşizm ideologiyası distopiya ədəbiyyatında fərqli formalarda əksini tapır. Feminist yanaşma bunlardan biridir və Katerin Burdekinin "Svasdika gecəsi" distopiyasının da əsas mövzudur. Əsəri həm totalitar siyasi rejimi bədii təsvir edən dövrün distopiya ədəbiyyatı, həm də Gilman, Vulf, Etvud yaradıcılığında əksini tapan feminizm düşüncələri ilə müqayisəli şəkildə, siyasi dominantlıq və patriarxal dominantlıq qarşılaşması kimi təhlil etmək olar.

David Karpın "Bir" əsərlərində də faşizm və kommunizm ideologiyasının kütləyə təzyiqi, totalitar rejimin əlində ideoloji vasitəyə çevrilməsi mövzusu aparıcı yer tutur. Diktaturaya xidmət edən istənilən ideoloji vasitə insan faciəsinin əsasında durur.

Faşizm təhlükəsi, müharibənin acınacaqlı günləri bu şəkildə

bədii ədəbiyyatda, distopiyada əksini tapmaya bilməzdi. Bu distopiya əsərləri kollektiv nəzarət mexanizmini təsvir edərkən həm kütlə üzərində psixoloji təzyiq, həm də kütlə içərisindən seçilmiş insanların rejimə inam və sədaqət mexanizmini təsvir etmiş olur.

İkinci fəslin *ikinci paraqraf*ı **"İdeoloji təzyiq bədii distopiyanın əsası kimi"** adlanır və iki bənddən ibarətdir. Paraqrafın *birinci bəndi* bədii distopiya əsərlərində patriarxal teokratiya mövzusunu təhlil edir. Hələ Sarah Skotun yaradıcılığında müəyyən mənada əksini tapmış bu mövzu sonrakı dövrlərdə də Gilmanın, Pirsin yaradıcılığında davam etmiş, distopiya ədəbiyyatı üçün də maraqlı mövzuya çevrilmişdir. Bu mövzuda yazılmış ən möhtəşəm əsəri isə M.Etvud yaradıcılığına aid etmək olar. Distopiya elementlərinin demək olar ki, hər birini özündə birləşdirmiş əsər, M.Etvudun "Damazlıq qızın hekayəsi" romanı, distopiya ədəbiyyatında olduqca əhəmiyyətli yer tutur. M.Etvud romanları haqqında yazarkən belə bir qeyd edir, *"Hər bir roman "bəs əgər?" deyə başlayır və öz aksiomlarını təqdim edir...Bəs əgər etdiyimiz yolu eyni cür davam etsək nə olacaq? Yamac nə qədər sürüşkəndir? Bizi xilas edəcək lütf nədir? Bizi durduracaq iradə kimdədir*? "[13] Bunları deyərkən Etvud distopiyanın fantaziya deyil, gerçəkliklə, bu gün baş verən proseslərlə əlaqəli formalaşdığını vurğulayır.

Bu mövzuda diqqəti cəlb edən daha bir maraqlı əsər Kristina Dalçerin "Səs" distopiyasıdır. Yazıçı bu əsərdə Amerikadakı yeni rejimi təsvir edir. Bu sistemdə ölkəni pislikdən arındırmaq üçün qadınların söz haqqı ləğv edilmiş, hər bir qadına gündəlik yüz söz norması tətbiq edilmişdir. İlk baxışdan sadə görünən bu fikri yazıçı elə məharətlə inkişaf etdirir ki, vəziyyət elə ilk səhifələrdən oxucunu sözün, nitqin gücü ətrafında düşünməyə vadar edərək bu distopiya mühitinə qarşı qəzəb oyadır.

Beləliklə, patriarxal teokratiya totalitar rejimin formalaşdırdığı distopiyadan bəhs edən bədii əsərlərdə özünəməxsus ideya təqdim edir. Feminist utopiyasında başlayan qadın hüquqlarının tanınmasına çağırış distopiya ədəbiyyatında qadın problemlərinin daha kəskin çalarlarla təsvirinə çevrilir.

[13] Atwood, M. Moving Targets. Writing with Intent 1982-2004 / M.Atwood. – Toronto: O. W. Toad Ltd, –2004. – p.287.

Bu paraqrafın *ikinci bəndində* bədii distopiya əsərlərində totalitar güc və idarəetmənin başqa bir istiqaməti, ideoloji propaqanda və senzura problemini təhlil edilir. Həm utopiya, həm də distopiya bədii əsərlərində ideologiyanın kollektiv mahiyyəti önəmlidir. Bu mənada, tez-tez rast gəlinən bir mövzu individualizm və kütlə mənafeyi arasındakı ziddiyyətli münasibətdir. İndividualizmin aradan qaldırılması, kollektiv rifaha inam totalitar distopiyalar üçün ümumi bir yanaşmadır. Ayn Rand "Himn" əsərində individualizmin yox edildiyi kollektiv distopiyanı təsvir edir. Gələcək dünyadakı yeni bir qaranlıq dövrü təsvir edən yazıçı hisslərdən, emosiyalardan məhrum, yalnız diktə edilən yaşayış tərzinə məhkum bir cəmiyyəti təsvir edir. Qardaşlıq, birlik ideyalarına əsaslanan bu cəmiyyətdə rejim qərarları ümumi icmanın rifahı üçün verildiyinə inam yaradır. A.Rand ideoloji təzyiqi, ideoloji despotizmi distopiya üçün maraqlı istiqamət olaraq təqdim edir. Əsərin lap başlanğıcından azadlığını arzulayan, lakin mövcud ideoloji təzyiq nəticəsində bu arzusunu günah kimi qəbul edən qəhrəmanın yaşadığı daxili təlatüm tədricən onun azadlığına yol açır. Distopiya əsərlərinin bir çoxunda qəhrəmanın bu cür oyanışı, yaşadığı daxili konflikt distopiyanın mahiyyətini dəyişə biləcək vasitə kimi diqqəti cəlb edir. Belə əsərlərdən biri də R Bredberinin "Faranheyt 451" distopiyasıdır.

Ümumiyyətlə, bənzər mövzuda qələmə alınmış distopiya əsərlərinin təhlili göstərir ki, bu mövzuda yazılmış əsərlər totalitar rejimin təzyiqini fiziki və psixoloji şiddət, həbs və azadlığın məhdudlaşması, dil və mədəniyyətin cılızlaşdırılması, ideoloji propaqanda və psixonevroloji müdaxilə yolu ilə insanların rejimə tabe etmək və ya sadiqliyini təmin etmək kimi vasitələri müzakirə edir. Kifayət qədər qorxulu görünən bu elementlər isə təəssüf ki, tarixin müəyyən dövrlərində baş vermiş hadisələrdən götürülmüşdür. Kifayət qədər qorxulu görünən bu elementlər isə təəssüf ki, gerçəklikdə baş vermiş, tarixin müəyyən dövrlərində baş vermiş hadisələrdən götürülmüşdür.

İkinci fəslin *üçüncü paraqrafı* **"Nəzarət və müqavimət gənc-yetkin distopiyasının spesifik xüsusiyyəti kimi"** adlanır və iki bənddən ibarətdir. Bu paraqrafın *birinci* və *ikinci bəndləri* Suzanna Kollinsin "Aclıq oyunları", Ceyms Daşnerin "Labirintdə qaçan",

Veronika Rosun “Divergent” distopiya seriyaları kimi əsərlərin təhlili vasitəsilə gənc-yetkin distopiya əsərlərində totalitar rejim, müqavimət və üsyan mövzusunu təhlil edir. Hadisələrin əsasən gələcəkdə cərəyan etdiyi gənc-yetkin distopiyası günümüzdə mövcud olan problemlər həllini tapmazsa sanki gələcək nəsillərin hansı fəlakətlə üzləşəcəyini elə onların öz obrazlarını canlandırmaqla təsvir edir.

Gənc-yetkin distopiya ədəbiyyatında mövzu və təhkiyə üslubu bənzərliyi var. Əsasən totalitar rejimin təzyiqi, insanın təbiətə müdaxiləsi və ya texnoloji yeniliklər səbəbindən meydana çıxan, təbii fəlakətlər nəticəsində yaranan distopiya dünyasının təsviri bir gənclə başlayıb böyük həcm alan etiraz, üsyan dalğasına bürünmüş, miqyası böyüməkdə olan mübarizə nağılına çevrilir. Cəsarət və ədalət uğrunda mübarizə əsərlərin əsas xəttini təşkil edir. Gənc-yetkin distopiya əsərlərində obrazlar tez-tez vəziyyətə uyğunlaşmaq və öz hisslərini anlamaqla bağlı çətinliklə qarşılaşır. Bu əsərlərdə şəxsiyyət, özünü tanıma, fərdiliyini qorumaq üçün mübarizə mövzuları ümumidir. Gənc-yetkin distopiya əsərlərindən bir çoxu da ətraf mühitin deqradasiyası, iqlim dəyişikliyi və ya digər ekoloji fəlakətlərin nəticələrini təsvir edir. Bu mövzular insan hərəkətlərinin planetə təsiri haqqında xəbərdarlıq kimi səslənir.

Distopiya ədəbiyyatının, eləcə də bədii distopiya kinosunun bəlli bir istiqamətinə çevrilmiş gənc-distopiya əsərlərini “bildungsoman” – tərbiyə romanı kimi təhlil etmək mümkündür. Əsasən seriya şəklində qələmə alınan bu əsərlərin ilk kitablarında qəhrəmanlar adətən yenicə yeniyetməlik yaşına qədəm qoymuşdur, növbəti hissələr gənc obrazların hadisələrin içərisində yetişdiyini, yavaş-yavaş yetkin bir insana çevrildiyini təsvir edir. Bu əsərlərə xas daha bir cəhət yetkinlik səyahətinin başlaması üçün müəyyən bir səbəbin olması, misal üçün sevimli insanın itirilməsi, azadlıq üçün üsyan və ən əsası cəmiyyətdə özünə uyğun bir yeri tapmaq cəhdidir. Beləliklə, gənc yetkin distopiya ədəbiyyatını əsas fərqləndirən xüsusiyyət qəhrəmanların yaşı ilə yanaşı əsərlərin təsvir olunan hadisələr içərisində obrazların inkişafı, yetkinləşməsi prosesinin təsviridir. Bununla paralel olaraq bu əsərlər yetkinləşən insan təbiətinin distopiyanı utopiyaya çevirmək potensialına olan ümidi də əks etdirir, *“Məncə insanların daxilində təbii xeyir var. Xətti şərə tərəf keçəndə hiss edirsən və səy göstərib o*

*xəttin düzgün tərəfində qalmaq insan üçün əsl sınaqdır.”* [14] (I think there’s a natural goodness built into human beings. You know when you’ve stepped across the line into evil, and it’s your life’s challenge to try and stay on the right side of that line.) Bu fikilər sanki gənc-yetkin distopiya əsərlərinin ümumi ideyasını təqdim edir, insanların təbiətində olan işıqlı və qaranlıq tərəflər arasında düzgün seçim etmək əsas həyat amalı kimi qəbul oluna bilər.

Göründüyü kimi, gənc-yetkin distopiya əsərləri insanlığın qarşılaşa biləcəyi potensial təhlükələrlə bağlı xəbərdarlıq mahiyyəti daşıyır. Lakin insanlığın gələcəyi olan gənclərin çətin şəraitə rəğmən doğru seçimlər edərək yetkin insanlara çevrilməsini işqılandıran bu əsərlərin ən maraqlı xüsusiyyəti odur ki, onların əksəriyyəti vəziyyətin nə qədər acınacaqlı görünməsindən asılı olmayaraq, hər zaman, pisliyə qarşı müqavimət və gələcəyə ümid işığı təqdim edir.

Bu fəsildə aparılmış təhlillər və qənaətlər “Bədii ədəbiyyatda və bədii kinoda alternativ dünya axtarışı”, “Bədii ədəbiyyatın və bədii kinonun linqvokulturoloji aspektləri”, “Narrative Construction of a Dystopian World”, “Utopia and Dystopia in Literature. Distribution of Power, Security and Freedom”, “Distopiya ədəbiyyatında dini-ideoloji mövzu”, “Resilience and Activism: The Impact Of Young Adult Dystopıan Narratıves On Young Readers”[15] adlı məqalə və tezislərdə dərc edilmişdir.

---

[14] Collins, S. The Ballad of Songbirds and Snakes / S.Collins. – New York: Scholastic Press, – 2020. – p.384.

[15] Hacıyeva, M. Bədii ədəbiyyatda və bədii kinoda alternativ dünya axtarışı // – Bakı: Filologiya məsələləri, – 2019. № 14, – s.333-340; Hacıyeva, M. Bədii ədəbiyyatın və bədii kinonun linqvokulturoloji aspektləri // “Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər” mövzusunda Beynəlxalq elmi konfransın materialları, – Sumqayıt: – 19-20 dekabr, – 2019, – s.150-152; Hacıyeva, M. Narrative Construction of a Dystopian World // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, – 2020. № 1 (18), – s.128-136; Hacıyeva, M. Utopia and Dystopia in Literature. Distribution of Power, Security and Freedom // Türk dünyası çalışmaları, Paradigma Akademi, – 2023. – p.207-224; Hacıyeva, M. Distopiya ədəbiyyatında dini-ideoloji mövzu // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2023. № 3 (123), – s.206-209; Hacıyeva, M. Resilience And Activism: The Impact of Young Adult Dystopian Narratives on Young Readers // – Riga: Baltic Journal of Legal and Social Sciences, – 2024. № 1, – p.247-255.

Dissertasiyanın **“Utopiya və distopiya ədəbiyyatında və bədii kino mətnlərində texnologiya və insan problemi”** adlanan III fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafı **“Utopiya və distopiya əsərlərində texnoloji tərəqqiyə ikili münasibət”** adlanır və iki bənddən ibarətdir. Paraqrafın *birinci bəndində* utopiya ədəbiyyatında əksini tapan texnoloji idealizm təhlil olunur. Elmi-texniki yeniliklər, onlarla yanaşı təhsilin önəmi, sosial statusundan və ya cinsi mənsubiyyətindən asılı olmadan bərabərhüquqlu təhsil alma, yaşama və təmsil olunma məsələləri utopiya və distopiya ədəbiyyatında ön planda duran problemlərə çevrilmiş və onu tədricən elmi fantastikaya yaxınlaşdırmışdır.

Elmi-texniki yeniliklərə münasibət və bu fonda qəhrəmanla utopiya icması arasında əlaqə, dini inanclar, yaşayış tərzi kimi məsələlərə yanaşmalardan danışarkən əsasən E.B.Lyuttonun “Vril, gələcək irqin gücü”, S.Batlerin “Erevhon”, M.E.B.Leynin “Mizora” əsərlərinin müqayisəli təhlilini aparmaq mümkündür. S.Batlerin və E.Lyuttonun əsərləri həm də erkən elmi-fantastik bədii ədəbiyyat nümunələri hesab oluna bilər. Birincidə texniki inkişafdan uzaq duraraq insan irqini hifz etməyə çalışan, ikincidə isə bu inkişafdan düzgün bəhrələnərək firavan həyat sürən bir icmadan söhbət açılır. Bu əsərlərdə müəlliflərin müasirləri olan insan irqinin təmsilçiləri isə təəssüf ki, bütün xüsusiyyətləri ilə müstəmləkəçilər, ambisiya və nəfsinə hakim ola bilməyən insanlar olaraq təqdim olunur. Sanki insanlar nəinki utopiya cəmiyyətinə çatmaq iqtidarında deyil, çalışsalar belə orada yaşamağa, qayda-qanunlara ciddi əməl edərək icmanın bir üzvünə çevrilməyə qadir deyillər. Bədii fikirdə eyni dövrdə meydana çıxmış, elmi-texniki inkişafı təhlükə olaraq dəyərləndirən Erevhon icmasının əksi olan, Vril gücünü ram etmiş utopiya cəmiyyətinə bənzər başqa bir cəmiyyət, Mizora utopik icması da mövcuddur. M.E.B.Leynin yaratdığı, qadın utopiya dünyasında da cəmiyyətin inkişafı birbaşa elmi-texniki inkişafla əlaqəlidir. Bu əsər bir çox xüsusiyyətlərinə görə diqqətə layiqdir. İlk feminist utopiyası olaraq qəbul edilən əsərdə utopiya cəmiyyətində kişilər də cəmiyyətdə olan xəstəlik, kasıblıq, cinayət kimi digər mənfi amillərlə birgə yox edilir. Bu da haqqında söhbət açılan cəmiyyəti rifaha, utopiya inkişafına gətirib çıxarır. Təhsilə verilən dəyər, cinsindən və sosial

statusundan asılı olmadan hər kəsin təhsil almaq hüququnun yaradılmasına çağırış əsərin dəyərini artırır. Əsərdə əksini tapan digər bir maraqlı fikir isə odur ki, insan irqi ümumi insanlıq üçün çalışmasa firavanlığa nail olmayacaq. Ona görə də, qəhrəmana aid olduğu cəmiyyətin bədbəxtliyi utopiyada belə izah olunur: *"Sizin ölkəniz heç vaxt öz cəhalətindən və deqradasiya-sından qalxmayacaq, ruhi əzabından özünün əvəzinə insanlıq üçün yanan ambisiya dolu bir təbiət inkişaf edənə qədər"*[16]. Bəşəriyyətin bədbəxtliyi ondadır ki, insanlıq parçalanıb, hər kəs öz rifahının qeydinə qalır.

Göründüyü kimi, texnoloji yeniliklərə münasibət utopiya ədəbiyyatında birmənalı xarakter daşımır. Bu əsərlərdə elmi-texniki tərəqqi cəmiyyətin inkişafı üçün bir vasitə olaraq təqdim olunur, lakin bu inkişafın bir icmanın digəri üzərində dominantlıq potensialı da müzakirə olunur.

Bu paraqrafın *ikinci bəndində* isə distopiya ədəbiyyatında texnoloji skeptizm mövzusu təhlil olunur. Elmi-texniki inkişaf bütün utopiya icmalarında eyni şəkildə qəbul edilmir. Əvvəldə vurğuladığımız kimi, S.Batler bu münasibəti 1872-ci ildə Erevhon cəmiyyəti timsalında satirik şəkildə təqdim edirdi. Qeyd etmək yerinə düşər ki, əsərin adı "olmayan yer" (nowhere) anlamında işlənir. Erevhon icması icma üzvləri üçün utopiyadır. Təbii ki, burada da bədbəxt bir qrup yox deyil, xəstəliyə və ya hansısa şəkildə faciəyə düçar olmuş insanlar var. Buna görə də, utopiyanı vəziyyət deyil, vəziyyətə baxış olaraq səciyyələndirmək mümkündür. Bu da hər bir utopiyanın daxilində gizlənən distopiyanın mövcud olması deməkdir. Məsələ onlardan hansının daha çox nəzərə çarpmasındadır və tamamilə müzakirəyə açıqdır.

Bədii distopiyada öz əksini tapan texnoloji skeptizmdən danışarkən Uellsin zamanda səyahəti kəşf etmiş alimin hekayəsini təqdim edən "Zaman maşını" distopiyası və E.M.Forsterin "Maşın dayanır" hekayəsi də təhlil olunur. Distopik gələcəyin təsviri zamanı əsas elementlərdən biri elmi-texniki inkişafın mexaniki varlığa çevirdiyi insanlıq problemidir. Uellsin distopiyasında zamanda səyahət edən, XIX əsrdə güc bölgüsü ilə tanış olan qəhrəman siniflərarası

[16] Bradley, M.E.L. Mizora: A Prophes / M.E.L.Bradley. – Manitoba: – 1999. – p.113.

ziddiyyətin gələcək forması kimi görünən iki növ insan irqi – yerüstü Eloi və yeraltı Morlok ilə qarşılaşır. Qəhrəman gələcəyə doğru irəlilədikcə isə yer üzü vahiməli, insanlardan, daha sonra heyvanlardan əsər qalmayan qorxunc məkan kimi təsvir olunur. Forster də gələcəkdə, yerin altında yaşamağa məcbur qalmış, maşından asılı insanlıqdan bəhs edir. Texnoloji inkişaf bu distopiya əsərlərində sivilizasiyanın labüd təhlükə mənbəyi kimi xarakterizə olunur.

Beləliklə, texnoloji inkişaf utopiya və distopiya ədəbiyyatında həm insanlığın inkişafına səbəb olan, həm də onu uçuruma aparmaq potensialı daşıyan vasitə olaraq xarakterizə olunur. Bu zaman diqqəti ən çox cəlb edən məsələ isə texnologiya dünyasında insanın yeri və insanlararası münasibət problemidir.

Bu fəslin ikinci paraqrafı **"Texnoloji tərəqqi və etik dilemmalar"** adlanır və iki bənddən ibarətdir. *Birinci bənd* texnoloji inkişafın insan rifahı üçün aparıcı vasitə kimi tətbiqindən bəhs edən, lakin ikimənalı xarakter daşıyan bədii əsərlərin şərhinə həsr olunmuşdur. Elmi-texniki inkişafın insan irqini aparacağı gələcək, bəziləri üçün utopiya olaraq qəbul edilən, bəzilərinin nəzərində və həyat tərzində daha çox distopiya mahiyyəti daşıyan gələcək, ən maraqlı təsvirini A.Hakslinin "Yeni cəsur dünya" əsərində tapır. Haksli insanın cəmiyyətdə yerini, funksiyasını doğulandan əvvəl təyin və idarə edən bir texnologiyaya sahib dünyada insanlığın faciəsini təsvir edir. Yazıçı əsərində "icma, birlik, stabillik" şüarları ilə pərdələnmiş, emosiya və fərdi keyfiyyətlərin məhv edildiyi, klonlaşdırılmış insanlardan ibarət, embrionların laboratoriyada istehsalı zamanından başlayaraq kasta sisteminin formalaşmasına əsaslanan bir gələcəyi təsvir edir. Hakslinin təsvirində diqqətlə formalaşdırılmış insan cəmiyyətinin distopiya üzü özünü insanların emosiyalardan, fərdi hisslərdən məhrum olmasında göstərir. Bunun nəticəsində dərin düşüncədən, səmimi münasibətlərdən məhrum, cəmiyyətdə hansısa mövqeni tutmağa proqramlaşdırılmış bir kütlə yaranmışdır.

K.Vonnequt da kəskin satira ilə "Harrison Burqeron" adlı kiçik hekayəsində insanlar arasında bərabərlik, rəqabətin aradan qaldırılması adı altında cəmiyyəti eyni dərəcədə eybəcər və küt bir kütləyə çevirmə siyasətini təsvir edir. Hekayə insanda elə dərin düşüncə oyadır ki,

sanki kiçik bir mətn deyil, böyük bir roman oxuyur. Bu da təəccüblü deyil, çünki K.Vonnequtun özünəməxsus, möhtəşəm üslubu hər əsərini oxuduqca insanı heyrətə gətirməyə davam edir. Hekayədə qeyd olunan fikirlər azadlıq və bərabərlik məfhumlarına gün-gündən absurdlaşan yanaşmaya dərin satirik münasibət sərgiləyir. Bundan əlavə, insan potensialının və təbiətinin istismarı, totalitar rejim, fərdi insan haqları, dövlətin rolu, sosial ədalət, nəzarətin və bərabərlik çağırışının sərhədləri kimi məsələlərə toxunmaqla hekayə bu gün də aktuallığını saxlayır. Bu distopiya hekayəsi oxucuları şəxsi azadlığı qurban vermədən ədalətli və bərabərhüquqlu cəmiyyətə nail olmağın çətinlikləri üzərində düşünməyə sövq edir.

Göründüyü kimi, elmi-texniki inkişaf və insan problemindən bəhs edən əsərlər yalnız bu səbəblərdən yaranan distopiya vəziyyətini təsvir etmir. Bu mövzuda təqdim olunan əsərlər tədricən dünyanın sonu, insan irqinin kəskin sual altına düşən gələcəyindən də bəhs etməyə başlayır.

Bu paraqrafın *ikinci bəndi* elmi-texnoloji yeniliklərə əsaslanan bədi distopiya əsərlərində rəqəmsal dünyada müşahidə və nəzarət probleminin təhlilinə həsr olunur. Texnoloji inkişafın sürətlə getdiyi bir dövrdə real olaraq nəzərə çarpan problemlərdən biri bu inkişafın insanları təsir altında saxlaması, propaqanda, nəzarət və təzyiq vasitəsinə çevrilməsi kimi məsələlərdir. Təbii ki, bu mövzuya distopiya ədəbiyyatında və bədii kino mətnlərində də tez-tez rast gəlinir. Bu əsərlərin müzakirə mövzusu əsasən sürətli inkişaf fonunda qarşıya çıxan etik suallar, insanların şəxsi məlumatlarının təhlükəsizliyi, sosial şəbəkələrin insan həyatına dərin təsiri kimi məsələlərdir.

Ben Eltonun "Kor inanc" distopiyası elmi tərəqqinin müəyyən qrupun rifahına xidmət etdiyi, insan kütləsinin kor inamı üzərində qurulmuş distopiya dünyasını təsvir edir. Əsərdə diqqəti cəlb edən məsələlərdən biri insanların informasiya axını, fasiləsiz olaraq sosial şəbəkə aktivliyi içərisində olmalarına rəğmən bütün vacib məlumatlardan bixəbər olmalarıdır. Bu gün dünyada gedən proseslərə, internet resursları, aşırı sosial şəbəkə fəallığına diqqət yetirdikdə B.Elton distopiyasındakı informasiya selində cahil qalmış kütlə olduqca real görünür.

Bu mövzuda qələmə alınmış daha bir distopiya Deyv Egers "Dairə" əsəridir. Əsər əsas texnologiya və media resurslarına sahib olan "Dairə" korporasiyası timsalında utopik şəffaflıq yaratmaq maskası altında fəaliyyət göstərən şirkəti təqdim edir. Oxucu tədricən şirkətin idarəedilməz hala gəldiyini, onunla paralel olaraq bu dünyaya tamamilə aludə olmuş Maenin elə şirkətin özü kimi "şəffaflıq" aludəçiliyi səbəbindən insanlıq duyğularından məhrum olduğunu müşahidə edir. Beləliklə, əsər sosial medianın təsiri və korporativ təzyiq altında formalaşmış, təəssüf ki, bugünkü gerçəklikdən heç də uzaq olmayan bir distopiya təqdim edir.

Texnoloji nəzarət, kütləvi müşahidənin yaratdığı distopiyadan bəhs edən daha bir əsər Skot Vesterfildin "Çirkinlər" elmi-fantastik distopiya seriyasıdır. "Dairə" distopiyasında insan azadlığına "şəffaflıq, daha şəffaf dünya yaratmaq" maskası altında müdaxilə olunur, "Çirkinlər" distopiyasında isə "gözəllik, daha gözəl dünya yaratmaq" maskası altında insan azadlığının manipulyasiyası baş verir. Burada gənclərin məcburi şəkildə əməliyyata cəlb olunması, onların fiziki görünüşlərinə müdaxilə həm də düşüncələrinə müdaxilə deməkdir.

Rəqəmsal dünyanın bu gün müşahidə olunan daha bir problemi də virtual dünya aludəçiliyidir. Virtual oyunlar Marqaret Etvudun "Oriks və Kreyk" distopiyası üçün də distopiyanı tədricən formalaşdıran zəmin hazırlayır. Əsərin qəhrəmanı Glenin yetişdiyi mühit, uşaqlıqdan aludə olduğu rəqəmsal oyunlar, ona qədər aparılmış və onun başçılığı ilə davam edən elmi təcrübələr onu Kreyk olaraq yeni dünyanın yaradıcısına çevirir.

Beləliklə, Etvud kimi yazıçıların yaratdığı distopiya dünyası virtual oyunların texnoloji inkişaf sayəsində reallaşaraq dünyanın sonunu gətirmək potensialını sərgiləyir. Bu, bir qədər şişirdilmiş proqnozdur, lakin vaxtilə bu təsir bağışlamış təhlükələrin bir çoxu bu gün artıq reallığın bir hissəsinə çevrilmişdir.

Bütün qeyd olunanlar texnoloji inkişafın sürətlə getdiyi bir dövrdə insanın yeri haqqında narahatlıq oyadır.

Bu fəslin üçüncü paraqrafı **"Distopiyada tərəqqi və təbiət ziddiyyəti"** adlanır. Bu paraqrafın *birinci bəndində* qeyd olunur ki, distopiya əsərlərində müzakirə olunan daha bir məsələ texnologiya və insan münasibəti, texnoloji inkişafın sürətlə getdiyi bir məkanda insanın

mövqeyi kimi məsələlərdir. Bu da təsadüfi deyil, dünyada gedən proseslərlə səsləşir. Bu zaman əsərlər elmi-fantastika ilə çox yaxınlaşır, lakin əsas mövzu insan olaraq qalır və bu inkişafda insanın taleyi ilə bağlı narahatlığı əks etdirir. Distopiyanın daha bir qolu isə insanla paralel olaraq cəmiyyətdə özünə yer salmış süni intellekt və identiklik problemidir.

Texnoloji yeniliklər daha çox distopiya əsərlərinin əsas mövzularından olsa da, "Gattaca", "O qadın" kimi filmlər genetik mühəndislik və bənzər texnoloji yeniliklərin insanların həyatını daha mükəmməl şəklə salacağı ümidini əks etdirir. Lakin əsərləri təhlil edərkən bu ümidin doğrulacağına şübhə yaranır. İnsanın tənhalığı, rəngsiz bir həyat sürən insanın faciəsini göstərən olduqca maraqlı distopiya əsərlərindən biri də möhtəşəm "Omar" filmidir. Filmdə təsvirini tapan distopiya cəmiyyətindəki şişirdilmiş qaydalar, rituallar sərt sosial sistemlərin və ənənəvi normalara riayət etmə tələbinin absurdluğunu nümayiş etdirir.

Elmi-texnoloji inkişafın distopiyaya çevirdiyi mühitdə tənhalıq və identiklik axtarışından danışarkən yada düşən bədii kinolardan biri də "Ülgüclə qaçan" distopiyasıdır. İdentiklik və korporasiyaların fəaliyyəti fonunda individual faciə elmi-fantastika elementləri ilə zəngin olan bu filmin ana xəttini təşkil edir. Bununla yanaşı, ətraf mühitlə bağlı narahatlıq, korporasiyaların gücü, süni intellektin yaradılmasında etik suallar, iqlim dəyişikliyi kimi məsələlər ön plana keçir.

Beləliklə, haqqında danışılan distopiya əsərlərinin nəzarətdən çıxmaqda olan texnoloji inkişafın yaradaca biləcəyi distopik gələcəklə bağlı ciddi xəbərdarlıq mahiyyəti daşıdığını görürük. Süni intellektin həyatımıza sürətlə daxil olduğu bir dövrdə bu mövzu xüsuilə diqqəti cəlb edir və texnoloji inkişafla təbii proseslər arasında münasibətlərlə bağlı ciddi suallar doğurur. Buna görə də, bu paraqrafın *ikinci bəndi* bədii distopiyada elmi-texniki inkişaf və təbiət qarşıdurmasının təhlilinə həsr olunub.

Distopiya ədəbiyyatından danışarkən, M.Etvud yaradıcılığı xüsusi olaraq qeyd olunmalıdır. Onun "Maddaddam" trilogiyası elmi-texniki inkişafın insanlığa təsirindən söhbət açır, biomühəndislik, genetik manipulyasiya və korporativ güclər haqqında fərqli mövzulara toxunaraq ciddi suallar oyadır. Əsərin qəhrəmanı, Cimmi (Qaradamı) ilə

onun dünyanın sonunu proqramlaşdıran dostu Glen (Kreyk) arasındakı dialoq bu mahiyyəti əks etdirir, *"- Kreyk dedi, ordakı divarlar səbəbsiz deyil. Bizi çöldə saxlamaq üçün yox. Onları içəridə saxlamaq üçün ucaldılıblar. İnsanlığın hər iki tərəf üçün səddə ehtiyacı var. – Onları? – Təbiət və Tanrını"*[17]. Qeyd etmək yerinə düşər ki, əsərin mürəkkəb təhkiyə üslubu da distopiyanın mahiyyətinə uyğundur. Hadisələri bir xətt üzrə nağıl etməyən yazıçı çoxşaxəli təhkiyə qurur, hadisələri fərqli perspektivlərdən, ilk baxışda uyğunsuz görünən bir ardıcıllıqda təqdim edir. Sadə dildə verilmiş təsvirlər elə incə şəkildə qurulub ki, dilin sadəliyinə baxmayaraq mənanın dərinliyi oxucuda iz buraxır. Məhv olmuş dünyadan bəhs edərkən deyilir, *"...sıfır saat. Rəsmi bir saatın olmaması onun canına üşütmə salır. Heç kim, heç yerdə saatın neçə olduğunu bilmir"*[18]. Əsərdə yaxşı və pis arasında sərhəd qoymaq asan deyil. Sağ qalmaq uğrunda mübarizədə obrazlar tez-tez mənəvi dilemma ilə üz-üzə qalır. Bu da oxucunu öz inamlarını, dəyərlərini bir daha gözdən keçirməyə dəvət edir.

Gördüyümüz kimi, elmi-texniki inkişafdan bəhs edən distopiya əsərlərində narahatlıq doğuran problemlərdən biri xarakterindən asılı olmayaraq texnoloji inkişafın təbiətə müdaxilə nəticəsində yaratdığı təhlükədir. Sanki təbiətlə, Tanrı ilə yarışa çıxan texnoloji tərəqqi insan cəmiyyətində, insanlararası münasibətlərdə ciddi çətinliklər yaradaraq real faciə potensialı daşıyır. Distopiya əsərləri bu prosesin nəzarətdən çıxmasını nəticə etibarilə insanlığı dərin fəlakətə sürükləyən amil olaraq dəyərləndirir.

Bu fəsildə aparılmış təhlillər və əldə olunmuş qənaətlər "Erevhon və Vril utopiyası", "Spekyulatıv bədii ədəbıyyat. Təxəyyül və reallıq arasında körpü", "M.Etvud bədii irsi: utopiya və distopiya"[19] adlı məqalələrdə dərc olunmuşdur.

---

[17] Atwood, M. The Maddaddam Trilogy / M.Atwood. – Toronto: Vintage Canada, – 2013. – p.207.

[18] Atwood, M. The Maddaddam Trilogy / M.Atwood. – Toronto: Vintage Canada, – 2013. – p.17.

[19] Hacıyeva, M. Erevhon və Vril utopiyası // – Bakı: Dil və Ədəbiyyat, – 2022. XII cild, № 1, – s.63-70; Hacıyeva, M. Spekyulatıv bədii ədəbiyyat. Təxəyyül və reallıq arasında körpü // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2023. Cild 16, № 3 (55), – s.165-171; Hacıyeva, M. M.Etvud bədii irsi: utopiya və distopiya // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, – 2024. № 1 (26), – s. 49-56

Dissertasiyanın IV fəsli **“Bədii utopiya və distopiya əsərlərində cəmiyyət və ətraf mühit problemi”** adlanır və üç paraqrafa bölünmüşdür. Bu fəslin **“Bədii utopiya və distopiya əsərlərində sosial problemlərin inikası”** adlanan birinci paraqrafı üç bənddən ibarətdir. Paraqrafın *birinci bəndində* bədii utopiya əsərlərində kommunal yaşayış və sosial reformalara çağırış mövzusu təhlil edilir. Utopiya və distopiya əsərlərində aparıcı mövzulardan biri də sosial-ictimai münasibətlər problemidir. Bu münasibətlərin qurulması və tənzimlənməsi cəmiyyətin utopik və ya distopik mahiyyətinin təyinedicisinə çevrilir. Təbii ki, digər fəsillərdə təhlil olunmuş əsərlərdə də sosial-ictimai məsələlər əksini tapır. Lakin bu paraqrafa daxil edilən əsərlərdə bu məsələ cəmiyyətin xarakterini göstərən əsas xüsusiyyət olaraq diqqəti cəlb edir. Bu mövzuda qələmə alınmış erkən bədii əsərlərdən E.Bellaminin “Geriyə baxarkən”, V.D.Houvellsin “Altruriyalı səyyah” əsərlərini qeyd etmək olar.

Bellaminin utopiya əsəri dövrünün ən çox satılan əsərlərindən idi. Cəmiyyətdə baş verən radikal hadisələri əsərdə əks etdirməməyi seçən yazıçının utopiya cəmiyyəti dinc şəkildə formalaşmışdır. Müəllif şəxsi mülkiyyətin milliləşdirilməsini cəmiyyətin rifahı üçün ən önəmli addım hesab edir.

V.D.Houvelsin “Altruriyalı səyyah” əsəri isə utopik Altruriya cəmiyyəti ilə müqayisədə müəllifin dövründə Amerika cəmiyyətinin mövcud problemlərinin ön plana çəkilməsi şəklində qurulmuşdur.

Beləliklə, haqqında danışılan əsərlər sosial reformaları, insanların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını utopiya üçün önəmli addım hesab edir. Başqa bir məslə isə utopiya fəlsəfəsində sosial inkişaf problemi, ictimai nizam-intizam məsələləridir.

Bu paraqrafın *ikinci bəndi* utopiyada fəlsəfi və sosial inkişaf probleminin təhlilinə həsr olunur. Bu əsərlərdə yerin məlum və ya az tədqiq edilən ərazilərində utopiyaların mövcudluğu və ya yaradılması arzusu bədii mətnlərə yol tapmağa davam edirdi. Lakin artıq dünyanın gələcəyi haqqında çox da nikbin olmayan müəlliflər insan irqinin sağ qalması üçün müəyyən keyfiyyət dəyişkənliyini vacib hesab edirdilər. Buna görə də, əsərlərdə həm özündən əvvəlki dövrlərin utopiya ənənəsinin davamını, həm də yeni istiqamətlərin formalaşmasını müşahidə etmək olur.

Əsrin əvvəllərində H.C.Uells utopiyanın pillə-pillə qurulmasını təsvir etməyə, bir növ utopiya planı təqdim etməyə çalışırdı. Onun "Müasir utopiya" utopiyası paralel şəkildə, dünyanın bir nüsxəsi, ideal bir nüsxəsi kimi mövcud olan utopiya icmasından bəhs edir. Uellsin utopiyası bir sıra məsələlərə müəllifin həllini də təqdim edir. Cəmiyyətdə əhalinin artımını problem kimi qəbul edən yazıçı utopiyada evlilik və uşaqların doğumunun müəyyən həddə qədər olmasını, qadın və kişilərin fərqli cins kateqoriyalarına ayrılmamasını məsləhət görür. Dövlət də kişi və qadınların işlərinə iki halda qarışa bilər – valideynlik və azadlıqlar arasında meydana çıxa biləcək qarşıdurma zamanı. Qadın azadlığı məsələsinə xüsusi diqqət ayıran müəllif mükəmməl cəmiyyətdə onların mövqeyi barədə özənəqədərki fikirləri, Platon və Aristotelin düşüncələrini müqayisəli təhlil edərək qadının utopiyada azad olmasını harmoniya üçün vacib hesab edir.

Bənzər yolla utopiyaya səyahət edən digər bir qrup isə Uellsin "Tanrılara bənzər insanlar" əsərinin qəhrəmanlarıdır. Uells ümumiləşmələr aparmaqdansa insanın fərdi keyfiyyətlərinin diqqət mərkəzində olduğu utopiya axtarışında idi. O, bu utopiyanın paralel aləmdə mövcudluğunu təsvir edirdi. Lakin unutmaq olmaz ki, müəllif sosial-siyasi problemləri işıqlandırdıqda belə bədii əsər yazıçının təxəyyülünün məhsuludur. Utopiya ədəbiyyatı isə fərziyyələr üzərində qurulur. Onlar hansısa fəaliyyət planı və ya mümkün gerçəkliyin, mümkün gələcəyin təsviri kimi qəbul edilə bilməz. Bu mənada Uells fərziyyələrinin ciddiyə alınmasını məsləhət görmürdü.

Göründüyü kimi, adı çəkilən əsərlər utopiyanın formalaşması üçün uyğun sosial inkişafı ən önəmli addım hesab edir. Qeyd olunduğu kimi, utopiya yalnız sosial-siyasi reformalar sayəsində deyil, həm də insanlararası münasibətlərin tənzimlənməsi sayəsində formalaşdırıla bilər. Cəmiyyətin hər bir fərdi öz üzərinə düşən məsuliyyəti dərk etməsə, əxlaq normaları və ictimai nizam-intizama nail olmasa utopiya bir illüziya olaraq qalacaqdır.

Bu paraqrafın *üçüncü bəndində* müzakirə olunan fikirlər utopiya fəlsəfəsi və mənəviyyat, ictimai nizam-intizam mövzusunun təhlili ilə davam etdirilir. Bəzi əsərlərdə utopiyanın məkanı dünyada naməlum və ya az tədqiq olunmuş ərazilərdir. Bunu C.Hiltonun "İtirilmiş horizon" əsərindəki kimi Tibetdə, coğrafi xüsusiyyətlərinə görə qapalı

mövcud olan utopiya icmasında görmək olar. Əsərdə məqsədyönlü şəkildə bu əraziyə qaçırılmış, fərqli həyat tərzinə və mədəniyyətə aid olan insanlarla birgə oxucu da qeyri-adi Şangri-La icması ilə tanış olur. Şangri-La monastrı dağlar arasında yerləşsə də, hər bir rahatlığa malik qapalı bir cəmiyyətdir. Qeyd edək ki, Şangri-La kəlməsi artıq utopik cənnət kimi başa düşülür, bir növ utopiya ilə eyni anlam qazanıb, metafora çevrilib. Tibetin əlçatmaz bölgəsində yerləşən bu ərazinin mövcudluğu təsdiqini tapmasa da Şangri-La nağılları illərdir fərqli dillərdə yaranmaqda davam edir. Bu maraq yalnız bədii ədəbiyyatda deyil müxtəlif araşdırmalarda da əksini tapmışdır.

Əsərləri təhlil etdikdə ingilisdilli utopiyada daha bir xüsusiyyətin formalaşdığı aydın olur, tədricən utopiyanın bir plan olaraq qəbul edilməsi, insan sivilizasiyasının içərisində, lakin müəyyən mənada müstəqil həyat sürən utopiya icmaları fikrini müşahidə etmək mümkündür. Bunun ən bariz nümunəsi B. F. Skinnerin "Volden iki" romanıdır. Skinner üçün utopiya siyasi reformalarla deyil insanın davranışının tənzimlənməsi ilə qurula bilər. Bundan əlavə insanların əhatə olunacağı mühitin diqqətlə qurulması da vacib şərtdir, çünki insanların davranışı ətraf mühitin təsiri ilə formalaşır. Belə mühit insan təbiətində mənfi xüsusiyyətlərin formalaşmasına imkan vermir. Skinnerin qəhrəmanı sanki ölkə içərisində utopik ölkə formalaşdırmaq, sivilizasiyanın mərkəzində fərqli bir sivilizasiya qurmaq niyyətindədir. Bu niyyət gözləntilərin əksinə olaraq kifayət qədər uğurlu şəkildə həyata keçir. Burada insanların daxilində daha mükəmməl insan olmaq bacarığının gizləndiyini görmək mümkündür. Eyni ümid Austin Tappan Uraytın "İslandiya" utopiyasında da əksini tapır.

Beləliklə, insanların ictimai nizam-intizama yiyələnməsi, insanlararası münasibətlərin tənzimlənməsi utopiya, firavan yerin formalaşması üçün daha bir zəruri məsələ kimi təhlil olunur.

Bu fəslin ikinci paraqrafı **"Distopiya ədəbiyyatında sosial problemlərin reprezentasiyası"** adlanır və iki bənddən ibarətdir. Paraqrafın *birinci bəndi* bədii distopiya əsərlərində əksini tapan sosial reqressiya və kəskin individualizm problemini təhlil edir. Bu mövzuda danışarkən Vilyam Qoldingin "Milçəklər hökmdarı" distopiyasından başlamaq yerinə düşür. Əsər qəzaya uğramış təyyarədən sağ çıxmış kiçik yaşlı uşaqların qurduğu, daha doğrusu qurmaqda uğursuz

olduqları kiçik icmadan bəhs edir. Yazıçı uşaqların yaratdığı bir icmadan bəhs etsə də, əslində lider seçimindən başlayaraq təsvirdəki ironiya, əsərin alleqorik mahiyyəti aydındır. Distopiya dünyasında cəmiyyət, insanlararası münasibət formalaşma səbəblərindən asılı olmayaraq birmənalı olaraq çətindir.

Bu mövzuya toxunarkən haqqında söz açılan daha bir yazıçı 60-70-ci illər distopiya ədəbiyyatına çox maraqlı əsərlər təqdim etmiş A.Börcessdir. Yazıçının "Mexaniki portağal" və "Toxum" əsərləri acı satira, qara yumor ilə fərqlənir. Birinci əsər gənc yaşlardan zorakılığa qurşanmış, özlərini "nadsat" adlandıran gəncləri idarə etməyə çalışan, onları siyasi oyunların əlində alətə çevirən gülünc qurumları təsvir edir. 1971-ci ildə çəkilmiş eyni adlı distopiya filmi də bu əsərə əsaslanır. Həm əsər, həm də ekranlaşdırılmış forması oxucuda, tamaşaçıda ciddi narahatlıq oyadan səhnələri, kadrları əks etdirir.

Distopiya ədəbiyyatında sosial ziddiyyətlər janrın adından da göründüyü kimi, ən kəskin və təzadlı vəziyyətdə təqdim olunur. Bu cür vəziyyətin yaranması səbəbləri müxtəlifdir. M.Etvud "Ürək ən sonda ayrılar" distopiyasında iqtisadi böhran yaşayan cəmiyyətdə sosial təcrübədə iştirak etmək məcburiyyətində qalan insanların faciəvi vəziyyətindən bəhs edir. Etvudun distopiyaları həm bu cür şəraitin formalaşması səbəblərini, həm də belə şəraitdə yaşamağa məcbur qalmış insanların seçimlərini təqdim etməklə oxucuya bu mürəkkəb dünyada hərəkətlərin, seçimlərin potensial nəticələrini təsəvvür etmək imkanı verir.

Bu mövzuda xüsusi olaraq qeyd olunacaq daha bir distopiya, dövrün ən möhtəşəm distopiya əsərlərindən biri, Kazio İşiquronun "Məni buraxma" romanı elmin inkişafı nəticəsində bir çox xəstəliklərə əlac tapmış cəmiyyətdə bu əlac rolunu oynayan donorların yetişdirilməsi, onların bir-biri ilə və cəmiyyətlə münasibətləri, dünyadakı yeri haqqında maraqlı, təsirli bir hekayə təqdim edir.

Distopiya əsərlərində qeyd olunan bütün bu problemlər nəticə etibarilə dünyanın sonuna, apokalipsisə gətirib çıxarır. Bu zaman ortaya çıxan digər bir mövzu isə apokalipsisdən sonrakı həyat, sağ qalanların faciəsi və ya sivilizasiyanı bərpa etmə cəhdidir.

Bu paraqrafın *ikinci bəndi* bədii distopiya əsərlərində tez-tez rast gəlinən apokaliptik və post-apokaliptik dünyanın təsvirini təhlil edir.

Distopiya ədəbiyyatında ictimai-sosial münasibətlər mövzusuna toxunarkən diqqəti cəlb edən məqamlardan biri fərqli səbəblər üzündən bu münasibətlərdə yaranan boşluqlar, insanlarda bir-birinə qarşı empatiya, emosional bağlılıq hissinin itməsindən yaranan distopiya cəmiyyətinin təsviridir. Bu, distopiya ədəbiyyatında insan sivilizasiyasını uçuruma aparan, tənəzzülə uğradan əsas səbəblərdən biri olaraq diqqəti cəlb edir. Getdikcə avtomatlaşan, robotlaşan dünyada gələcək nəsillərin virtual dünyaya aludəçiliyi, süni intellektin insanlararası münasibətlərdə emosional səviyyədə təsiri kimi gözləntiləri nəzərə aldıqda bu problemlərin getdikcə reallaşdığını da müşahidə edə bilirik. Distopiya əsərlərində isə B. Joon-ho, M.Etvud, K.Makkarti kimi müəlliflər insanlararası münasibətin insan cəmiyyətinin inkişafındakı əhəmiyyətini vurğulayaraq sadalanan problemlərlə bağlı artıq bir müddətdir ki, həyəcan təbili çalmaqdadır.

Bu fəslin üçüncü paraqrafı **“Ekotopiya və ətraf mühit problemi”** adlanır və mövzu iki bənd çərçivəsində təhlil edir. *Birinci bənddə* utopiya əsərlərində təbiətlə harmoniya ideyası və pastoral utopiyalar təhlil olunur. Bu əsərlər sanki bir suala cavab axtarır: insan cəmiyyətində firavanlığın əsasını nə təşkil edə bilər, elmi inkişaf yoxsa təbiətlə harmoniya? Elmi-texnoloji inkişafın sürətlə getdiyi müasir dövrdə mövzunun bədii ədəbiyyatda geniş müzakirəsi təəccüb doğurmur. Lakin distopiya ədəbiyyatında bu mövzu hələ XIX əsrdən insan təbiəti ilə ziddiyyət təşkil edən bir element olaraq narahatlıq doğurmuşdur. Bu əsərlərin çoxunu həm utopiya, həm də distopiya hesab etmək olar. Onlar sanki “İnsanın utopik arzularını reallaşdıracaq elmi inkişafa nail olsaq insan cəmiyyəti xoşbəxt olarmı?” sualına cavab axtarır. Misal olaraq Volter Besantın “Daxili ev” əsərini göstərmək olar. Əsər əvvəlki fəsillərdə təhlil olunmuş, Doddun nəql etdiyi utopiya/distopiya ilə çox bənzərdir. Eynilə, burada da lazımsız sayılan hər şeyə – ədəbiyyat, incəsənət kimi sahələr, məhəbbət kimi zamanla əhəmiyyətini itirən hisslərə ehtiyac yoxdur. Qəhrəmanların dilində birmənalı olaraq utopiya kimi təqdim olunan cəmiyyət əslində bir utopiya satirasıdır.

Utopiya ədəbiyyatında yuxarıdakı suala verilən cavablardan digəri isə firavanlığın əsasında təbiətlə harmoniyanın durmasıdır. Hadsonun “Büllur dövrü” utopiyası məhz bu ideya ətrafında qurulur.

Təbiətlə harmoniya fikri növbəti dövrlərdə də inkişaf edərək ekoloji təmizliyi utopik yaşayışın əsasında görən əsərlərdə insan və ətraf mühit münasibətlərindən bəhs etməyə davam etmişdir. Bunu Aldos Hakslinin “Ada”, Kallenbaçın “Ekotopiya” əsərlərində müşahidə etmək mümkündür.

Ənənəvi utopiyalardan fərqli olaraq bu əsərlərdə utopik diyara getmək rəsmi maneələrdən keçməklə də olsa mümkündür. Onlar əlçatmayan, naməlum bölgələrdə deyil, dünyanın digər ölkələrinə yaxın, müstəqil ərazilərdədir. Lakin bu müstəqilliyin özü də, utopik yaşayışın davamlılığı da sual doğurur. Göründüyü kimi, sanki müəlliflər nəzərə çapdırmaq istəyir ki, dünyanın harasındasa imperialist güclərdən azad, məsum bir yaşayış qurmaq qeyri-mümkündür.

Bu paraqrafın *ikinci bəndi* bədii distopiya əsərlərində aparıcı mövzulardan birinə çevrilmiş qlobal xarakterli ekoloji fəlakət xəbərdarlığından bəhs edir. Bu mövzu əslində distopiya ədəbiyyatında yeni deyil. Hələ XX əsrin lap əvvəllərində M.P.Şielin “Bənövşəyi bulud”, Viliyam Hop Hodqson “Gecə torpağı” əsəri kimi distopiyalar bu mövzunu müzakirə edir. Ümumiyyətlə, zaman keçdikcə çox sayda bədii əsər distopiya xarakterli elmi-fantastika əsrlərdir. Onlardan çoxu ayrıca apokalipsis, alternativ tarix əsərləri kimi qruplaşdırılır. Dünya müharibələrindən sonra totalitar güclərin, ideoloji diktaturanın yaratdığı insan faciəsi də distopiya ədəbiyyatında aparıcı mövzu olaraq qalmaqdadır. Bununla yanaşı ətraf mühitin təhlükəli vəziyyətə düşməsi, elmi-texniki yeniliklərə maraq, nüvə silahları, insanın fəzanı kəşf etmə marağı, bunların ətraf mühitə, təbiətə təsiri kimi mövzular da ön plana çıxmağa başlamışdır.

Dünyanın sonunu gətirən səbəblər müxtəlif ola bilər. Diqqəti çəkən məqam həm bu səbəblərin formalaşması, həm də fəlakət dövründə və ondan sonra insanlararası münasibətlərin mahiyyətidir. P.D.Ceymsin “İnsan övladları” distopiyasında hadisələr 2021-ci ildə, İngiltərədə baş verir. Əsər qəhrəmanı Teonun (Thedore) gündəliyinə yazdığı bu sözlərlə başlayır, “*Bu gün, 1 yanvar 2021-ci il, səhərin erkən saatlarında, gecə yarıdan üç dəqiqə keçmiş yer üzündə doğulmuş son insan övladı Buenos-Ayresin şəhərkənarındakı pivəxanalardan birində, davada öldürüldü. O, iyirmi beş il, iki ay, on*

*iki gün yaşamışdı"*[20]. Bu girişdə iki məqam diqqəti cəlb edir: dünyada artıq iyirmi beş ildir ki yeni uşaqların doğulmur və ən gənc insan, son doğulmuş insan oğlu adi bir qalmaqalda qurban verilir. Əsər 2008-ci ildə ekranlaşdırılmışdır. Bu distopiya bir tərəfdən insan oğlunun dünyadakı əsas məqsədini, insan irqinin davamlılığını təmin etmək bacarığını itirməsi ilə ümiddən, məqsəddən məhrum olmasını təsvir edir. Digər tərəfdən isə, əsərdə dövlət nəzarəti və təzyiqi nəticəsində miqrantların həbs düşərgələrinə bənzər mərkəzlərdə yaşamağa məhkum edilməsi, cəmiyyətdəki kəskin təbəqələşmə diqqəti cəlb edir. Bütün bunlarla yanaşı, əsərdə təsvir olunan dünyada ətraf mühitin çirklənməsi, sağlamlıq problemləri yaşanır, ümumiyyətlə nizamsızlıq, qarışıqlıq hökm sürməkdədir. Sanki dünya süqutun tam astanasındadır.

Beləliklə, distopiya əsərlərində mövzular bir-birini tamamlayır. Fərqli səbəblər üzündən fəlakətə sürüklənən dünyada nəticə etibarilə apokalitik vəziyyət yaradır. Təəssüf ki, bu səbəblər gerçəkliklə çox əlaqəlidir.

Bu fəsildə aparılmış təhlillər və əldə olunmuş qənaətlər "H.C.Uells yaradıcılığında utopiya", "New Directions in Utopia", "Utopiya arzusu XX əsrin sonlarında", "Distopiya ədəbiyyatında uğursuz utopiya ənənəsi", "Distopiya bədii mətnlərində insan və cəmiyyət münasibətləri"[21] adlı məqalə və tezislərdə dərc edilmişdir.

Dissertasiyanın V fəsli **"Bədii təhkiyədə utopiya və distopiya kəsişməsi"** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəslin **"Zaman və məkan dinamikası. Utopiya/distopiya xronotopu"** adlanan birinci paraqrafı bədii utopiya və distopiya əsərlərində zaman və məkan dinamikasının struktur xüsusiyyətlərini təhlil edir. Utopiya və distopiyanın mahiyyətinin təhlili zamanı zaman-məkan dinamikası

---

[20] James, P.D. The Children of Men / P.D.James. –New York: Vintage, –2006. –p.4

[21] Hacıyeva, M. H.C.Uells yaradıcılığında utopiya // – Bakı: Filologiya məsələləri, – 2020. № 12, – s.271-279; Hacıyeva, M. New Directions in Utopia // Anatolian Congresses. 8th International Social Sciences Congress, – Diyarbakir: – 24-26 December, – 2021, – s.152-157; Hacıyeva, M. Utopiya arzusu XX əsrin sonlarında // International Khazar Scientific Researches Conference – III. – Bakı: Full Texts Book, – 7-9 January, – 2022, – s. 307-312; Hacıyeva, M. Distopiya ədəbiyyatında uğursuz utopiya ənənəsi // – Bakı: Filologiya məsələləri, – 2022. № 14, – s.219-229; Hacıyeva, M. Distopiya bədii mətnlərində insan və cəmiyyət münasibətləri // – Bakı: Filologiya məsələləri, – 2024. № 4, – s. 430-437.

xüsusi əhəmiyyət daşıyır. Haqqında danışılan əsərlər utopiya, distopiya, eutopiya, anti-utopiya, kokotopiya və s. adlar altında qruplaşdırılır. Bütün bu kəlmələrin əsası "topos" – yer məfhumu ilə bağlıdır, yəni janrın adı belə məkansal anlam daşıyır. Maraqlı cəhət odur ki, elə ilk fəsildə kəlmənin təhlili zamanı da vurğulandığı kimi, adın özündə həm də mümkün olmayan yer anlayışı var. Bədii əsərlər müəllif təxəyyülünün məhsuludursa, bu element məhz utopiya/ distopiya əsərlərində daha qabarıqdır, xəyali dünya qurmaq isə məkan və zaman qurmaq deməkdir. Məkan və zaman emosiya və dəyərlərin əks olunduğu zəmindir. Utopiya və distopiya gələcək və ya alternativ dünyaların təsviri olsalar da, mövcud vəziyyəti və dəyərlər sistemini saf-çürük etmək niyyətindən yaranır.

Bu paraqrafda, ilk növbədə, utopiya və distopiya mətnlərində zamanın müvəqqəti mahiyyətindən danışılır. Bu aspekt utopiyanın illüziya mahiyyətində özünü göstərir. Qəhrəmanlar illüziyanın fərqinə varan kimi, utopiya distopiyaya çevrilir. Digər maraqlı məqam isə zamanın durğunluğu, bir növ dondurulmasıdır. Bu amil də həm utopiyanın daxilində gizlənən distopiyanı görməyə yardım edir, həm də distopiya əsərlərində opressiv rejimin əsas təzyiq vasitəsinə çevrilir. Məkandan danışarkən isə, fiziki məkanın təsvirindən söz açılır və bununla yanaşı iyerarxiya sistemi, utopiyada harmoniya, distopiyada opressiv quruluşların yerləşməsi təhlil edilir. Bu zaman yalnız fiziki məkana deyil, həm də şəxsi və ictimai məkan, güc bölgüsü kimi məsələlərə diqqət ayrılır.

Bu fəslin ikinci paraqrafı **"Bədii əsərin şərhində müəllif-əsər-oxucu mövqeyi"** adlanır. Bu paraqrafda utopiya və distopiya əsərlərinin təhlili zamanı bədii şərh prosesinin xüsusiyyətləri araşdırılır. Hər bir bədii əsərlə qarşılaşma oxucusu / tamaşaçısı üçün yeni bir səyahət kimdir, simvollar axınının yaratdığı mənalı dünyaya səyahət kimi. Oxucu / tamaşaçı dayandığı nöqtə ilə səyahət etdiyi bu dünya arasındakı sərhəddi keçmək üçün xəyal gücü ilə yanaşı müəyyən bir biliyə də ehtiyac duyur. Bu bilik bədii əsəri şərh etmək imkanı yaradır. Bədii əsərin şərhi onun mənasını, oxucuya/ tamaşaçıya aşıladığı fikri və bu prosesin nə üçün, hansı şəkildə baş verməsini aydınlaşdırmaq cəhdidir. Bunu zəruri edən amil bədii əsəri anlamaq ehtiyacıdır və əsərin mənası da məhz onu anlama və bu da öz

növbəsində onu şərh etmə dərəcəsindən asılıdır. Yəni, anlama mənanın formalaşması və reallaşması prosesinin bir hissəsi olaraq təyin edilə bilər.

Bu fəslin üçüncü paraqrafı **“Bədii əsərdə utopiya/distopiya kəsişməsi”** adlanır. Əvvəlki fəsillərdə təhlil olunmuş əsərlərdə utopiya əsərlərində distopiya elementlərinin, eynilə distopiya dünyasında da paralel olaraq utopiya həyatının mövcud olduğun qeyd olunub. İlk utopiya əsərlərindən başlayaraq davam edən bu kəsişmə bəzən ilk baxışda nəzərə çarpmaya bilir. Oruellin, Etvudun, Kollinsin haqqında söhbət açılmış distopiyalarının hər birində bir utopiya həyatı yaşayan “Kapitoli” mövcuddur. Lakin bu əsərlər utopiya deyil, distopiya kimi xarakterizə olunur, çünki əsərin əsas ideyası distopiyada mübarizədə olan qəhrəmanların vəziyyətdən çıxış yolu axtarmaq səyi ətrafında qurulur. Bəzən isə müəlliflər bu paralelləri bilərəkdən qabarıq şəkildə təsvir edir, ikimənalı təhkiyə qurur.

Utopiya-distopiya kəsişməsi kino mətnlərində özünü daha aydın büruzə verir. Bədii əsərlərdən fərqli olaraq kino mətnlərində utopiya mövcud vəziyyətin üstüörtülü tənqidi kimi təqdim olunmur. Bunun əvəzinə kino əsasən audio və vizual elementlər vasitəsilə xəyali dünya yaradaraq tamaşaçıya emosional təsir etmək, daha çox sensasiya yaratmaq və kommersiya uğuru qazanmaq məqsədi daşıyır. Yəni, bir müəllifin ideoloji yanaşmasını əks etdirən, sosial, siyasi dəyişikliklərə təşviq etmək məqsədi daşıyan bədii utopiya ədəbiyyatı ilə müəyyən bir qrupun müştərək işi olan kino arasında xeyli fərq var, birincini utopiya kimi kateqoriyalaşdırmaq daha asandır, ikinci üçün bunu demək çətindir. Bundan başqa, kino mətnlərində utopiya və distopiya elementləri qarışır, demək olar ki bütün utopiya kimi görünən filmlər sonda distopiyaya çevrilir.

Bu fəsildə aparılmış təhlillər və əldə olunmuş qənaətlər “Bədii düşüncənin təqdimat formaları”, “Bədii əsərdə təhtəlşüurun izləri”, “Bədii əsərin şərhində subyektiv yanaşma”, “Dil və forma bədii şərhin əsas meyari kimi”, “Interpretation of fiction. Phenomenology, Hermeneutıcs and Receptıve Aesthetıcs”, “Utopiya/distopiya ədəbiyyatında feminist ideyalar”, “Sounding Voices and Shifting Perspectives: Polyphony and Heteroglossia in Utopian and Dystopian Fiction and Cinema”, “A Critical Examination of Alternative Space in

Utopian and Dystopian Narratives in The Context Of Contemporary Societal Paradigms", "Chronotopic Contrasts: Unraveling Temporal Dynamics in Utopian and Dystopian Narratives", "Concept of Horizon and the Intersection of Utopian and Dystopian Visions in Literature"[22] adlı məqalə və tezislərdə çap olunmuşdur

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatdan alınan qənaət ümumiləşdirilmişdir. Utopiya və distopiya bədii mətnlərinin təhlili bədii düşüncənin estetik kateqoriya yaratmaqla yanaşı sosial-ictimai hadisələri münasibət, siyasi-ideoloji istiqamətləri şərh etmə gücünü də sərgiləyir. Bu əsərlər formalaşdığı dövrlər üzrə, ardıcıllıqla təhlil edildiyi zaman tarixin müxtəlif dövrlərində aparıcı istiqamətə çevrilmiş konsepsiyalar da müşahidə edilmiş olur. Formalaşdığı ilk dövrlərdən utopiya əsasən dövrün qabaqcıl ictimai-siyasi xadimləri tərəfindən qələmə alınırdı. T.Mor ənənəsinin davamı olaraq bu əsərlərdə müəlliflərin (F.Bakon, H.Nevil, F.M.Kavendiş) müasiri olduqları problemləri bədii müstəvidə diqqətə çatdırmaq cəhdləri

---

[22] Hacıyeva, M. Bədii düşüncənin təqdimat formaları // – Bakı: Risalə, – 2019. № 2 (17), – s.159-165; Hacıyeva, M. Bədii əsərdə təhtəlşüurun izləri // "Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" mövzusunda Beynəlxalq elmi konfrans. – Bakı: –23-25 dekabr, – 2020, –s.198-200; Hacıyeva, M. Bədii əsərin şərhində subyektiv yanaşma // – Bakı: Gənc Tədqiqatçı, – 2021. VII cild, № 2, – s.180-186; Hacıyeva, M. Dil və forma bədii şərhin əsas meyarı kimi // – Bakı: Filologiya və Sənətşünaslıq, – 2021. № 1, – s.98-104; Hacıyeva, M. Interpretation of fiction. Phenomenology, Hermeneutics and Receptive Aesthetics // – Baku: Ancient Land. International scientific journal, – 2023. Vol.5, Issue 3 / 24, – p.24-29; Hacıyeva, M. Utopiya/distopiya ədəbiyyatında feminist ideyalar // "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" mövzusunda Beynəlxalq elmi konfrans, – Bakı: – 6-7 mart, – 2023, – s.282-288; Hacıyeva, M. Sounding Voices and Shifting Perspectives: Polyphony and Heteroglossia in Utopian and Dystopian Fiction and Cinema // – Norwegian Journal of development of the International Science, – 2024. № 126, – p.83-89; Hacıyeva, M. A Critical Examination of Alternative Space in Utopian and Dystopian Narratives in The Context of Contemporary Societal Paradigms // – Cienfuegos: Universidad y Sociedad, – 2024. Vol.16, № 2, – p.274-281; Hacıyeva, M. – Košice: Chronotopic Contrasts: Unraveling Temporal Dynamics in Utopian and Dystopian Narratives // Path of Science: International Electronic Scientific Journal, – 2024. Vol. 10, № 3, – p.4001-4006; Hacıyeva, M. Concept of Horizon and the Intersection of Utopian and Dystopian Visions in Literature // – Toshkent: Language and Culture, – 2024. Vol. 1, № 1, – p.100-111.

əksini tapırdı.

Utopiya yalnız fiziki yerdəyişmə deyil, həm də mənəvi, kamilliyə səyahət mahiyyəti kəsb edir. Bu aspekti C.Svift, S.Conson, S.Skot yaradıcılığında xüsusi olaraq müşahidə etmək mümkündür. Mükəmməl cəmiyyətin formalaşması kamil insanlar yetişməsə mümkün deyil. Buna görə də Sviftin qəhrəmanı həyatı boyu kamillik axtarışına çıxır. Svift həm də utopiya ədəbiyyatına kəskin satirik ton və Qulliversayağı qəhrəman obrazı gətirdi. Sonrakı dövrlərdə tez-tez bir növ insan irqinin müdafiəçisinə çevrilərək qarşılaşdığı utopiyalarda insanların da müəyyən bir dəyərə malik cəmiyyət qurduğunu iddia edən, lakin arqumentləri əsasən absurd görünən obrazlar yarandı. Bundan başqa, ingilisdilli bədii fikirdə ilk distopiya elementlərinin də məhz C.Sviftin yaradıcılığında müşahidə edildiyini demək olar.

Tədqiqat zamanı utopiya və distopiya bədii əsərlərinin bü cür inkişaf dinamikasını əsas götürərək təhlillər aparılmış və aşağıdakı nəticələri əldə edilmişdir:

- Sosial-siyasi ideologiyalar utopiya ədəbiyyatına təsir etməyə bilməz. Buna görə də tarixin müəyyən mərhələsində olduqca geniş kütlənin diqqət mərkəzində olan sosializm, sosial islahatlara çağırış utopiya ədəbiyyatında da E. Bellamy, U.Morris və s. kimi tanınmış yazıçıların əsərlərində öz əksini tapdı. Buraya həm də K. Diksinin utopiyasında göründüyü kimi qadın hüquqları, cinsindən asılı olmayaraq insanların təbii olaraq bərabərhüquqlu yaşama istəyi də utopiyanın aparıcı mövzularından birinə çevrildi;

- Distopiya əsərləri üçün əsas mövzulardan biri totalitar rejim və siyasi təzyiqdir. Bunun ən bariz nümunəsi C.London, G.Oruell kimi möhtəşəm yazıçıların əsərlərində müşahidə edilir. Məhz onların yaradıcılığı sonrakı dövrlərdə M.Etvudun, Ursula Le Guinin heyrətamiz distopiya əsərlərinin yaranmasında rol oynamışdır;

- Bədii distopiya oxuculara və tamaşaçılara olduqca rəngarəng qəhrəman obrazları təqdim edir. Xüsusilə gənc-yetkin distopiya əsərləri dəyişikliyin hərəkətverici qüvvəsinə çevrilən gənclər təqdim etməklə insanlığın gələcəyinə olan ümid işığını göstərməkdədir;

- Formalaşdığı dövrün yenilikləri və problemləri utopiya ədəbiyyatı üçün əsas rolunu oynayır. Buna görə də, tarixin müəyyən dönəmlərində xüsusilə əhəmiyyət qazanmış elmi-texniki tərəqqi

utopiya əsərlərinə də yeni mövzu verir. E.B.Lytton, S.Butler. W.H.Hudson utopiyalarında bu amil təhlükə mənbəyi, cəmiyyətdə harmoniyanı pozan, bir qrupun digəri üzərindəki nəzarətini artıran qorxulu element kimi təqdim olunur. M.E.B.Leyn isə feminist utopiyasında elmi-texniki tərəqqini cəmiyyətin əsas inkişaf göstəricisi kimi təqdim edir. Bununla da bədii utopiya və distopiya texnoloji idealizm və skeptizm qütbləşməsi təqdim edir;

- Rəqəmsal texnologiyaların, virtual reallıq, süni intellekt və texnoloji yeniliklər sayəsində kütləvi nəzarətin artması həm bədii ədəbiyyatda, həm də kinoda distopiya əsərlərinin yeni nəslini yaratdı. Bu əsərlər rəqəmsal dövrün dərin narahatlıqlarını əks etdirən ənənəvi insan şəxsiyyəti, azadlıq və nəzarət konsepsiyalarını davam etdirir. “Dairə”, “MaddaAddam” trilogiyası və “Qara güzgü” seriyası kimi əsərlərin təhlili göstərir ki, texnoloji tərəqqi insan inkişafı üçün potensial təklif edir, eyni zamanda fərdilik, azadlıq, şəxsi məlumatların qorunması, insanlararası münasibətlərin inkişafı üçün əhəmiyyətli risk amilləri də yaradır;

- Utopiya ədəbiyyatı adətən yerdən kənarda və ya yer üzündə hamı tərəfindən tanınmayan, naməlum ərazilərdə formalaşmış utopiya dövlətlərini təsvir edir. Lakin dünyanın bilinən bölgələrində utopiyanın mümkünlüyü arzusu da bədii əsərlərdə geniş yer tutur ki, bu xüsusiyyəti Uells, Skinner yaradıcılığında müşahidə olunur;

- Müasir dövrdə distopiya ədəbiyyatı insanlararası münasibətlərlə bağlı təşviş, dünya bir fəlakətə sürüklənərsə, insanlarda dəyərlərə münasibətin dəyişməsi qorxusunu əks etdirir. Utopiya əsərlərinin əsas ideyası odur ki, kamil insan olmazsa, ideal cəmiyyət formalaşa bilməz. Distopiya ədəbiyyatı da eyni ideyanı davam etdirərək xəbərdarlıq mahiyyəti daşıyır ki, bərbad mühitdə müsbət keyfiyyətlər yox olacaq;

- Tarix distopiya ədəbiyyatı üçün geniş mövzu, obraz və təxsəvvür imkanları verir. İnsanlıq tarixi təbii fəlakətlər və ya insanların öz ambisiyaları nəticəsində yaşanan fəlakətlərlə doludur. Müasir dövrə nəzər salsaq, güc bölgüsü, qlobal anlamda güclü dövlətlərlə daha az inkişaf etmiş dövlətlər arasında münasibətlər, nüvə təhlükələri, baş verməkdə olan və potensial olaraq hər an başlaya biləcək müharibə qorxusu, terror həyəcanı distopiya əsərlərini mövzu

ilə zənginləşdirir. Bu hadisələrin təkrar-təkrar baş vermə ehitmalı distopiyanın xəbərdarlıq edici mahiyyətini artırır;

- Zaman və məkan utopiya/distopiya əsərləri üçün sadəcə hadisələrin fonunu təşkil etmir, bütövlükdə xarakterini təyin edir. Utopiya donmuş zamanı, sabit məkanı təsvir edirsə distopiyada məkan fərqli siyasi, sosial, mədəni hadisələrin kəsişdiyi dinamik və ziddiyyətli mühitdir. Zaman distopiya üçün olduqca özünəməxsusdur. Distopiyada zaman çox vaxt idarə olunur, zamana müdaxilə olunur, bəzən keçmiş dəyişkən, indiki zaman stabil xarakter alır (G.Oruell, M.Etvud) bu qəribə şəkildə çərçivələnmiş, idarə olunan vəziyyət distopiyanın əsasında durur. Bu zaman tanış məkanlar da güc bölgüsü nəticəsində yad, təhdidedici xüsusiyyət qazanır;

- Bədii əsəri təhlil edərkən fərqli yanaşmalara müraciət etməli oluruq. Bunlara müəllifin əsərin təhlilində yeri, mətnyönümlü təhlil və oxucu/tamaşaçı baxışının şərh prosesindəki rolu kimi yanaşmalar daxildir;

- Utopiya ədəbiyyatının əsas xüsusiyyəti əsərlərdə təsvir olunan harmoniyanın əsərin strukturunda yaratdığı durğunluqdur. Buna görə də utopiya ədəbiyyatının bir çox nümunələri bitkin bir bədii əsər təsiri bağışlamır, daha çox sosial plan təsiri bağışlayır. Digər məsələ qəhrəman obrazının natamamlığı ilə bağlıdır. Utopiya ədəbiyyatı bizə yetkin, hadisələrin gedişatında müəyyən rol oynayan qəhrəman obrazı vermir. Bu əsərlərdəki durğunluq, passiv qəhrəman obrazlarına da sirayət edir;

- Utopiya əsərləri həm də distopiya olaraq xarakterizə edilə bilər. Buna ilk səbəb yuxarıda vurğuladığımız süskünlükdür. Utopiya dinamik, ziddiyyətə, təhlilə, dəyişikliyə açıq deyil. Ona görə də distopiya əsərləri ilk növbədə uğursuz utopiya xülyasına satira şəklində yarandı;

- Nə qədər qəribə görünsə də, əslində, utopiya əsərləri insanlığın gələcəyinə ümid oyatmır, distopiya isə əksinə ümid verir, mübariz insan obrazları yaradaraq insani keyfiyyətlərin, əzm, iradə və empatiya kimi xüsusiyyətlərin insanlığı istənilən fəlakətdən qurtarma potensialına diqqət etməyə çağırır;

- Bədii kino mətnlərində utopiya kimi şərh edə biləcəyimiz əsərlər çoxsaylı deyil. Buna səbəb odur ki, bədii ədəbiyyat

nümunələrində təsvirini tapan statik mühiti filmdə təsvir etmək çətindir. Film mütləq şəkildə müəyyən dərəcədə dinamiklik tələb edir. Buna görə də utopiya adlandıra biləcəyimiz filmlər (Truman şousu, Pleasantville, Çimərlik) daha çox distopiya xarakterlidir;

- Utopiya filmlərində mətnin utopiya xüsusiyyəti tamamilə baş qəhrəmanın vəziyyətə baxışı ilə xarakterizə olunur. Belə ki, qəhrəman yaşadığı mühitdəki çatışmazlığın, ziddiyyətlərin fərqinə varan kimi utopiya distopiya xarakteri alır. Bu dəyişiklik həm də sabitliyin, passivliyin dinamika ilə əvəzlənməsinə səbəb olur;

- Distopiya kino mətnlərində elmi-fantastika elementləri çox hiss olunur. Müasir dövrdə həm bədii ədəbiyyatda, həm də bədii kinoda distopiya getdikcə elmi-fantastika, fentezi elementləri ilə daha çox zənginləşir. Buna səbəb dövrümüzdə baş verən yeniliklər, elmi-texniki tərəqqinin müasir həyata təsiri və oxucu/tamaşaçı kütləsinin maraq dairəsidir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalə, konfrans materialı və tezislərində əks olunmuşdur:**


1. Bədii düşüncənin təqdimat formaları // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – 2019. № 2 (17), – s.159-165;
2. Bədii ədəbiyyatda və bədii kinoda alternativ dünya axtarışı // – Bakı: Filologiya məsələləri, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2019. № 14, – s.333-340;
3. Bədii ədəbiyyatın və bədii kinonun linqvokulturoloji aspektləri // "Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər" mövzusunda Beynəlxalq elmi konfransın materialları, SDU, – Sumqayıt: – 19-20 dekabr, – 2019, – s.150-152;
4. Narrative Construction of a Dystopian World // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – 2020. № 1 (18), – s.128-136;
5. H.C.Uells yaradıcılığında utopiya // – Bakı: Filologiya məsələləri. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2020. №

12, – s.271-279;
6. Distorted Reflection of Reality. Satire in Utopia // Akdeniz Zirvesi 3. Uluslararası Sosyal Bilimler Kongresi, – Girne: – 17-18 Ekim, – 2020. – p.147-152;
7. Bədii əsərdə təhtəlşüurun izləri // Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyinin yaradılmasının 80 illik yubileyinə həsr olunmuş "Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri" mövzusunda Beynəlxalq elmi konfrans. – Bakı: – 23-25 dekabr, – 2020, – s.198-200;
8. Stoaçılıq fəlsəfəsi və utopiya // Füzuli adına Əlyazmalar İnstitutu "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda V Beynəlxalq elmi konfrans, – Bakı: – 30 noyabr, – 2020, – s.63-65;
9. İngilis ədəbiyyatında səyahət utopiyası // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – 2020. № 2 (19), – s.130-136;
10. Bədii əsərin şərhində subyektiv yanaşma // – Bakı: AMEA Gənc Tədqiqatçı elmi-praktiki jurnal, – 2021. VII cild, № 2, – s.180-186;
11. Dil və forma bədii şərhin əsas meyarı kimi // – Bakı: Filologiya və Sənətşünaslıq, AMEA, – 2021. № 1, – s.98-104;
12. Utopiya ədəbiyyatında siniflərarası ziddiyyətin əks olunması və islahatlara çağırış // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – 2021. № 2 (21), – s.53-62;
13. New Directions in Utopia // Anatolian Congresses. 8th International Social Sciences Congress, – Diyarbakir: – 24-26 December, – 2021, – s.152-157;
14. Nizami Gəncəvi yaradıcılığında utopiya fikri // Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən Respublika Gənclər konfransı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – Bakı: – 7 noyabr, – 2021, – s.100-105;
15. Erevhon və Vril utopiyası // – Bakı: Dil və Ədəbiyyat, Azərbaycan Dillər Universiteti, – 2022. XII Cild, № 1, – s.63-70;
16. Utopiya arzusu XX əsrin sonlarında // International Khazar Scientific Researches Conference – III. – Bakı: Full Texts Book, – 7-9 January, – 2022, – s.307-312;

17. Distopiya ədəbiyyatında uğursuz utopiya ənənəsi // – Bakı: Filologiya məsələləri. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2022. № 14, – s.219-229;
18. Bədii fikirdə distopiya elementləri // Elmi iş. Beynəlxalq elmi jurnalı. VII Respublika Elmi Qaynaqlar konfransının materialları. – Bakı: – 4 may, –2022. – s.23-26;
19. Interpretation of fiction. Phenomenology, Hermeneutics and Receptive Aesthetics // – Baku: Ancient Land. International scientific journal, – 2023. Volume 5, Issue 3 / 24, – p.24-29;
20. Utopiya/distopiya ədəbiyyatında feminist ideyalar // "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" mövzusunda Beynəlxalq elmi konfrans, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, – Bakı: – 6-7 mart, – 2023, – s.282-288;
21. Utopia and Dystopia in Literature. Distribution of Power, Security and Freedom // – Türk dünyası çalışmaları, Paradigma Akademi, – 2023. Aralık, – p.207-224;
22. Distopiya ədəbiyyatında dini-ideoloji mövzu // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, BDU, – 2023. № 3 (123), – s.206-209;
23. Spekyulatıv bədii ədəbiyyat. Təxəyyül və reallıq arasında körpü // – Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, – 2023. Cild 16, № 3 (55), – s.165-171;
24. Sounding Voices and Shifting Perspectives: Polyphony and Heteroglossia in Utopian and Dystopian Fiction and Cinema // – Norwegian Journal of development of the International Science, – 2024. № 126, – p.83-89;
25. Resilience and Activism: The Impact of Young Adult Dystopian Narratives on Young Readers // – Riga: Baltic Journal of Legal and Social Sciences, – 2024. № 1, – p.247-255;
26. A Critical Examination of Alternative Space in Utopian and Dystopian Narratives in the Context of Contemporary Societal Paradigms // – Cienfuegos: Universidad y Sociedad, – 2024. Vol.16, № 2, – p.274-281;
27. Chronotopic Contrasts: Unraveling Temporal Dynamics in Utopian and Dystopian Narratives // – Košice: Path of Science:

International Electronic Scientific Journal, – 2024. Vol. 10, № 3, – p.4001-4006;
28. Concept of Horizon and the Intersection of Utopian and Dystopian Visions in Literature // – Toshkent: Language and Culture, – 2024. Vol. 1, № 1, – p.100-111;
29. Distopiya bədii mətnlərində insan və cəmiyyət münasibətləri // – Bakı: Filologiya məsələləri. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2024. № 4, – s. 430-437;
30. M.Etvud bədii irsi: utopiya və distopiya // – Bakı: Risalə. Elmi araşdırmalar jurnalı, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, – 2024. №1 (26), – s. 49-56.

Dissertasiyanın müdafiəsi ***18 dekabr*** 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən BED 1.31 Dissertasiya şurasının iclasında keçiriləcək.
Ünvan: AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

Dissertasiya ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “07” noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.11.2024
Kağızın formatı: A5
Həcm: 83 560 işarə
Tiraj:100